KÜRD xalqı mübariz və qəhrəman xalqdır
Heydər Əliyev

# DÎPLOMAT

№ 38 (373) 12 - 18 Dekabr, Çileya pêş, sal, 2016
Ji meha şûbatê sala 2003-a tê weşandin
*Həftəlik İctimai-siyasi qəzet*
Rojnama heftename civakî û sîyasî
Qiymәti: Hêjaye: 40 qəpik

# 12 DEKABR ÜMUMMİLLİ LİDER, BÖYÜK HEYDƏR ƏLİYEVİN ANIM GÜNÜDÜR





Səh. 2

## Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin məzarını ziyarət edib



Səh. 3

## ULU ÖNDƏR HƏR ZAMAN BİZİMLƏDİR

## GÜLLƏ ATMADAN HAKİMİYYƏTƏ GƏLƏN DÜNYA SİYASƏTÇİSİ

Səh. 4-5

## ÖMRÜNÜ-GÜNÜNÜ XALQINA HƏSR EDƏN DAHİ İNSAN

Səh. 8-9

## Daşkəsən rayonunda xalqimizin Ümummilli Lideri Heydər Əliyevin əziz xatirəsi dərin ehtiramla yad edildi

Səh. 6

## Hələb Suriya ordusu tərəfindən azad edildi

Səh. 12

## “Kəlbəcər təhsili Cəfər müəllimin, “Qara Bəhmən”in adı ilə bağlı idi”

Səh. 11

## Peşmerge savaş kurallarına en sadık güçtür

Səh. 12



Səh. 12

## Pentaqon şefi İraq Kürdüstanında



Səh. 15

## Barzanî li ser jiyana bi hev re diaxife



Səh. 12

## Türkiyədə daha iki kürd deputat saxlanıldı



Səh. 16

## Масрур Барзани и Джо Байден обсудили будущее Ирака

# 12 DEKABR ÜMUMMİLLİ LİDER, BÖYÜK HEYDƏR ƏLİYEVİN ANIM GÜNÜDÜR

## Ulu Öndər Böyük Heydər Əliyevin vəfatından 13 il keçdi

Azərbaycan Respublikasının üçüncü Prezidenti Heydər Əliyevin vəfatından 13 il keçir. Heydər Əlirza oğlu Əliyev 1923-cü il mayın 10-da Azərbaycanın Naxçıvan şəhərində anadan olub. 1939-cu ildə Naxçıvan Pedaqoji Texnikumunu bitirdikdən sonra Azərbaycan Sənaye İnstitutunun (indiki Azərbaycan Dövlət Neft Akademiyası) memarlıq fakültəsində təhsil alıb. Başlanan müharibə ona təhsilini başa çatdırmağa imkan verməyib.

1941-ci ildən Heydər Əliyev Naxçıvan MSSR Xalq Daxili İşlər Komissarlığında və Naxçıvan MSSR Xalq Komissarları Sovetində şöbə müdiri vəzifəsində işləyib. 1944-cü ildə dövlət təhlükəsizliyi orqanlarında işə göndərilib.

Heydər Əliyev 1964-cü ildən Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsi sədrinin müavini, 1967-ci ildən isə sədri vəzifəsində işləyib, general-mayor rütbəsinə qədər yüksəlib. Həmin illərdə o, Leninqradda xüsusi ali təhsil alıb, 1957-ci ildə isə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsini bitirib. Azərbaycan SSR Kommunist Partiyası Mərkəzi Komitəsinin 1969-cu il iyul plenumunda Heydər Əliyev Azərbaycan SSR Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilib. 1982-ci ilin dekabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü seçilən Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edilib və SSRİ-nin rəhbərlərindən biri olub. Heydər Əliyev 1987-ci ilin oktyabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun və baş katib Mixail Qorbaçovun yeritdiyi siyasi xəttə etiraz əlaməti olaraq, tutduğu vəzifələrdən istefa verib.

Heydər Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciə ilə əlaqədar ertəsi gün Azərbaycanın Moskvadakı nümayəndəliyində bəyanatla çıxış edərək, Azərbaycan xalqına qarşı törədilmiş cinayətin təşkilatçıları və icraçılarının cəzalandırılmasını tələb edib. O, Dağlıq Qarabağda yaranmış kəskin münaqişəli vəziyyətlə bağlı SSRİ rəhbərliyinin ikiüzlü siyasətinə etiraz əlaməti olaraq, 1991-ci ilin iyulunda Sovet İttifaqı Kommunist Partiyasının sıralarını tərk edib. 1990-cı ilin iyulunda Azərbaycana qayıdan Heydər Əliyev ilk əvvəl Bakıda, sonra isə Naxçıvanda yaşayıb, həmin ildə də Azərbaycan Ali Sovetinə deputat seçilib. O, 1991-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Azərbaycan Respublikası Ali Soveti sədrinin müavini olub.



Heydər Əliyev 1992-ci ildə Yeni Azərbaycan Partiyasının Naxçıvan şəhərində keçirilmiş təsis qurultayında partiyanın sədri seçilib. 1993-cü il iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçilən Heydər Əliyev iyunun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başlayıb. 1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçilib. O, 1998-ci il oktyabrın 10-da keçirilən növbəti prezident seçkilərində yenidən Azərbaycan Respublikasının Prezidenti seçilib. 2003-cü il oktyabrın 15-də keçiriləcək prezident seçkilərində namizədliyinin irəli sürülməsinə razılıq vermiş Heydər Əliyev səhhətində yaranmış problemlərlə əlaqədar seçkilərdə iştirak etməkdən imtina edib.

## Prezident İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin məzarını ziyarət edib

Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünya şöhrətli siyasi xadim, xalqımızın ümummilli lideri Heydər



Əliyevin vəfatından 13 il keçir.

Azərbaycan dövlətçiliyinin xilaskarı, türk dünyasının böyük oğlu Heydər Əliyevin vəfatından ötən illər ərzində görkəmli şəxsiyyətin, əbədiyaşar Prezidentimizin məzarı xalqımızın müqəddəs ziyarətgahına, gənclərin and yerinə çevrilib. Bütün ilboyu insanlar buraya gəlir, xalqımızı, Azərbaycanı dünyaya tanıtmış, özü də dünyanın görkəmli şəxsiyyətlərindən biri kimi tanınmış böyük azərbaycanlının xatirəsinə ehtiramlarını ifadə edirlər.

Azərbaycanın dahi oğlu Heydər Əliyevin əbədiyyətə qovuşmasının 13-cü ildönümü günü – dekabrın 12-də də paytaxt sakinləri, respublikamızın rayon və şəhərlərinin nümayəndələri, xarici ölkələrdən gəlmiş qonaqlar Fəxri xiyabanda xalqımızın Ümummilli Liderinin xatirəsini dərin ehtiramla yad edir, onun məzarı önünə əklillər, gül dəstələri qoyur, müdrik dövlət xadiminə Allahdan rəhmət diləyirdilər.

Azərbaycanın ən yeni tarixinin bütöv bir qərinəsi Heydər Əliyevin adı ilə bağlıdır. Qeyri-adi şəxsiyyəti, siyasət və dövlət xadiminə xas olan böyük istedadı ilə fərqlənən, xarizmatik lider olan Heydər Əliyev hələ sağlığında canlı əfsanəyə çevrilmişdi. 1969-cu ildə respublika rəhbərliyinə gələn Heydər Əliyev, əslində, sosial-iqtisadi böhran keçirən



Azərbaycanı 1970-1980-ci illərdə keçmiş İttifaqın ən qabaqcıl respublikalarından biri səviyyəsinə çıxarmışdı. Tədqiqatçılar haqlı olaraq vurğulayırlar ki, müasir mərhələdə Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi məhz həmin illərdə təməli qoyulmuş potensiala əsaslanır.

1993-cü ilin yayında, müstəqilliyini yenicə bərpa etmiş Azərbaycanın taleyinin Tanrının ümidinə qaldığı bir vaxtda xalq özünün və ölkənin gələcəyini Heydər Əliyevə etibar etdi.

Bu, böyük Qayıdış idi və Ulu Öndər müdrikliyi, zəngin siyasi və dövlətçilik təcrübəsi, sarsılmaz qətiyyəti, yenilməz iradəsi sayəsində ölkəni, xalqı, gənc müstəqil dövləti labüd fəlakətdən qurtardı. Qədirbilən Azərbaycan xalqı dahi oğlunun bu əvəzsiz xidmətlərini heç vaxt unutmur.

Dekabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri Heydər



Əliyevin məzarını ziyarət ediblər.

Milli Məclisin deputatları, nazirlər, komitələrin, şirkətlərin və idarələrin rəhbərləri, respublika ictimaiyyətinin nümayəndələri də Fəxri xiyabana gəlmişdilər.

Prezident İlham Əliyev Ulu Öndərin məzarı önünə əklil qoydu.

Azərbaycanın dövlət himni səsləndi.

Dövlətimizin başçısı İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da məzarı üzərinə gül dəstələri qoydular.

Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad edildi, məzarları üstünə gül dəstələri düzüldü.

Ümummilli lider Heydər Əliyevin məzarının ziyarət edilməsi mərasimində Baş nazir Artur Rasizadə, Milli Məclisin sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və digər rəsmi şəxslər iştirak ediblər.

# 12 DEKABR ÜMUMMİLLİ LİDER, BÖYÜK HEYDƏR ƏLİYEVİN ANIM GÜNÜDÜR

# ULU ÖNDƏR HƏR ZAMAN BİZİMLƏDİR

## Nə qədər ki, müstəqil Azərbaycan dövləti var, Azərbaycan xalqı var, Ümummilli lider, Ulu Öndər Böyük Heydər Əliyev də ürəklərdə yaşayacaqdır!

*Xatirələr unudulmur*

***Hər bir insan arzu edər ki, dahi, möhtərəm və mötəbər dövlət rəhbərləri ilə görüşsün. Belə fürsətlərdən biri də mənə qismət oldu. Və mənə dünya siyasətçilərinin öndərləri sırasında olan ümummilli lider, böyük öndər, müdrik insan, dövlət rəhbəri Heydər Əliyev cənabları ilə görüşmək nəsib oldu. O gün mənim həyatımın ən xoş günlərindən biri idi. O günü mən hər zaman xoş xatirələr kimi anıram və yeri düşəndə o görüş barədə dostlara fəxrlə danışıram.***

-1992-ci ilin dekabr ayı idi. Hər yerdə hərc-mərclik hökm sürürdü. Cəbhədə itaətsizlik, özbaşınalıq yaranmış, günü-gündən torpaqlarımız əldən gedir, şəhidlərimizin sayı artırdı. Azərbaycan yas içində idi. Ölkəmizin hər yerində yasxanalar qurulmuşdu.

Hər gün cəbhədən xoşagəlməz xəbərlər gəlirdi. Heç kim heç kimin ərizəsini oxumaq istəmirdi. Demək olar ki, ölkə idarə olunmurdu.

O zaman faşist Səddam Hüseyn zülmündən qaçıb Araz çayını keçərək Naxçıvana pənah gətirən və hakimiyyətdə olan səriştədsiz cəbhəçilərin əlinə düşən bir qrup kürd və türkman qaçqınlarının həbs olunduğunu eşitdim, hansı ki, əksəriyyəti qadın-uşaq, yaşları yetmişi haqlamış qocalar və ona qədər orta yaşlı kişilər idilər. Hətta həmin günlərdə bir qadın iki qız övladı dünyaya gətirmişdi, birinin adını Azərbaycan, digərinin adını isə Kürdüstan qoymuşdular. O vaxtkı səbatsız dövlət rəhbərlərinin ucbatından Naxçıvan sərhədçiləri onları saxlamış və 6 aya qədər həbs etmişdilər.

Havaların çox soyuq olmasına baxmayaraq biz Naxçıvan MR-na getdik. Ora gecə saatlarında çatdıq, məsələ ilə bağlı Milli Məclisin sədri Heydər Əliyev cənablarına müraciət etdik, onunla görüşmək istədiyimizi bildirdik. Vasif Talıbov cənabları, Heydər Əliyev cənablarının bizi qəbul edəcəyini bildirdi.

Gecə saat 24.00 idi. Qarabağ məsələsi barədə kiminləsə telefonla söhbət edirdi. Qapı yarıaçıq olduğundan hərdən qulağımıza Qarabağla bağlı sözlər çatırdı.

Bizi içəri dəvət etdilər. Naxçıvan Kürd Mədəniyyət Mərkəzinin sədri Nizami Alıyevlə qapını döydük, içəri daxil olduq. Naxçıvanda heç bir yerdə elektrik işığı olmadığından otaqda neft lampası yanırdı, otaq yarıqaranlıq idi, sol tərəfdə neft sobasının istisi hiss olunurdu. İş otağının baş tərəfində dəyirmi masa var idi. Heydər Əliyev cənabları masanın arxasında əyləşmişdi. Biz içəriyə daxil olanda o, yerindən qalxıb bizə tərəf gəldi.Bizimlə bir-bir görüşüb xoşgəldiniz dedi və qolumuzdan tutaraq masaya tərəf apardı. Bizi oturtduqdan sonra, özü keçib kresloya əyləşdi. Üç saata qədər bizimlə çox sakit, səmimi söhbət etdi. Mavi gözlərində müdriklik, sonsuz mərhəmət görünürdü. Bizi diqqətlə dinlədi, İşimizlə bağlı məlumat alandan sonra tapşırıqlar verdi və dedi: "Qaçqınlarla görüşün, əgər onlar bu qışı Naxçıvanda qalmaq istəyirlərsə, biz onları kəndlərdə yerləşdirə bilərik, qaçqınlarla görüşdən sonra vaxt tapıb mənim yanıma gələrsiniz".

Sonra Bəylər müəllimə tapşırdı ki, gecdi, maşın olmaz, qonaqları aparın. Biz nə qədər təkid etsək də o, razı olmadı.

O, böyük insanın hər işə belə diqqətlə yanaşması məni valeh etdi. Öz-özümə düşünürdüm; görəsən onda işə belə maraq, həvəs hardandır. "Heç bir dövlət məmuru gecənin bu vaxtına qədər qalıb işləməz." Səhərisi günü bizi Naxçıvan MTN-nə dəvət etdilər. Axşam saat səkkizə qədər bizi sorğuladılar. MTN-nin əməkdaşları günorta yeməyinə getsələr də biz yeməksiz qaldıq. Axşam saat səkkizdə MTN-nin iki əməkdaşı ilə birlikdə qaçqınların saxlandığı hərbi hissəyə getdik. Hərbi hissənin



həyəti işıq olmadığından zil qaranlıq idi. Bir azdan dar dəhlizə keçdik. Dəhliz qaranlıq olsa da dəhlizin sonunda zəif lampa işığı görünürdü. Geniş bir otağa keçdik, bizi Şahmurad, Şahmərdan və bizi dindirən MTN-nin əməkdaşlarından biri və tanımadığım daha bir neçə mülki geyimli adamlar qarşıladı. Yenə sorğu suallar başladı, sonda o qərara gəldilər ki, qaçqınlarla kürd dilində danışmayaq. Aralarında olan türkmanlar kürd dilini də bilirdilər, onların vasitəsi ilə öyrəndik ki, onlar tranzit bir ölkə kimi Azərbaycandan Rusiyaya, oradan da Avropaya getmək istəyirlər.

Qaçqınların istəklərini öyrəndikdən sonra "qonaqlı" otağa gəldik və qaçqınların istəklərini onlara bildirdik. MTN-nin əməkdaşlarından biri mənə tapşırdı ki, Bakıya qayıdanda nazirliyə gedim. Səhərisi günü, qaçqınların problemləri ilə bağlı, Heydər Əliyev cənablarına məlumat vermək üçün yenidən onunla görüşməyə getdik, işin bütün incəlikləri ilə maraqlandı, soruşdu və bizə dedi: "Siz gedin, mən münasib yoldaşlara tapşıraram, onları azadlığa buraxıb, yola salarlar". Səhərisi qaçqınlar həqiqətən hissə-hissə Bakıya göndərildilər və oradan da Moskvaya yola salındılar.

O ölməz insanla görüşdüyüm üçün özümü xoşbəxt sayıram. Yuxarıda qeyd etdiyim kimi o dövrlərdə Azərbaycanda böyük hərcmərcliklər baş alıb gedirdi. Bunu görən xalq, xalqımızın dahi oğlu, əzəli və əbədi milli liderimiz Heydər Əliyev cənablarını Bakıya dəvət etdi.

Heydər Əliyev yenidən hakimiyyətə gəldi və tariximizi, dinimizi, dilimizi, mənəviyyatımızı, parçalanmaq üzrə olan Vətənimizi bizə qaytardı. O, Azərbaycan xalqını, Azərbaycan dövlətini məhv olmaqdan, dünya xəritəsindən silinməkdən birdəfəlik xilas etdi. Ölkəmizdə yaşayan milli azlıqlar Heydər Əliyevi, onun apardığı dünyəvi siysətini böyük məhəbbətlə sevirlər və dəstəkləyirlər. Bu sevgi, bu məhəbbət xalqımızın ürəyində əbədi qalacaq.

Çünki xalqımız və ölkəmiz üçün taleyüklü anlarda düşmənlərimiz etnik azlıq amilindən istifadə etmək istəyirdilər. Azərbaycan xalqının ayrılmaz hissəsi olan azsaylı xalqları fəlakət qarşısında idilər. Məhz Heydər Əliyev onları bu fəlakətdən xilas etdi. Xalqımız onun xidmətlərini heç vaxt unutmayacaq, daim Heydər liyevin siyasətini dəstəkləyib və dəstəkləyəcək. Biz Heydər Əliyevin ideyalarının həyata keçməsi üçün ömrümüzün sonuna kimi çalışacağıq və onun ideyalarını yaşatmaq üçün möhtərəm prezidentimiz İlham Əliyev cənablarına möhkəm dəstək olacağıq. O, ölümü ilə xalqlarımızı birləşdirdi və onun məzarı millətimizin ziyarətgahına çevrildi. Bu gün minlərlə insan axını onun məzarını ziyarət etmək üçün sübh çağından əllərində gül-çiçək güllü-gülüstana dönmüş Fəxri Xiyabana axın edir, milli liderimizi anırlar. "Günəşdən nur doğar", deyiblər. Doğrudan da bu gün xalqımız Heydər Əliyevdən doğan nurun, İlham Əliyevin ətrafında birləşərək Öndərimizdən miras qalan Vətənimiz Azərbaycanı inamlı addımlarla qabaqcıl ölkələr sırasına aparırlar.

O, hər zaman, hər an bizimlədir, çünki onun xalqımıza bəxş etdiyi tükənməz sərvətlər hər yerdədir. Xalqımızı azadlığa çıxaran, ona xoşbəxt gələcək bəxş edən, Ümummilli liderimizə Uca Tanrıdan rəhmət diləyirik.

***Tahir Süleyman***

# 12 DEKABR ÜMUMMİLLİ LİDER, BÖYÜK HEYDƏR ƏLİYEVİN ANIM GÜNÜDÜR

# GÜLLƏ ATMADAN HAKİMİYYƏTƏ GƏLƏN DÜNYA SİYASƏTÇİSİ

**Dünyanın inqilab sistemi, siyasətçiləri Azərbaycan xalqının xilaskarı, Ulu Öndər, Böyük Heydər Əliyev cənablarının inqilabından, böyük**



**siyasətindən dərs almalı və örnək götürməlidirlər. Beləki, Ulu Öndər, Böyük Heydər Əliyev güllə atmadan, xalqın xahişi və tələbi ilə hakimiyyətə gəldi, Azərbaycanı və Azərbaycanda yaşayan azsaylı xalqları böyük fəlakətdən xilas etdi.**

Bəli Ümummilli lider, Böyük Heydər Əliyev mülki geyimdə təyyarədən düşdü və ilk işi qardaş qırğını baş verən Gəncəbasara getdi, silahsız, qorumasız. Qısa müddətdə ölkənin sabitliyini pozan bütün silahlı qüvvələrə elə siyasi gediş etdi ki, onlar silahları ilə birlikdə gəlib "torbaya" girdilər və bir də ayıldılar ki, cəzaçəkmə məntəqələrindədirlər. Heç kimin təsəvvür etmədiyi qısa bir vaxtda atəşkəs elan etdi və respublikada sabitliyi yaratdı. Böyük humanistlik edərək, ömürlük həbsə məkum edilən o silahlı dəstələrin rəhbərlərini azadlığa buraxaraq dedi: "Siz gedin ailələrinizi idarə edin, sizlər dövləti idarə etməyə qadir deyilsiniz".

Bəli bir güllə atmadan hakimiyyətə gəldi və yasxanaları toyxanalarla əvəz etdi, Azərbaycanı dünyaya tanıtdı, indiki sabitlik, inkişaf göz qabağındadır.

Görürsünüz, Suriyada neçə illərdir qardaş qırğını gedir, Mustafa Kamalın Cümhuriyyətin yaranmasında edilən qətliyamlar və yaranan gündən bu günə qədər qardaş qanı axıdılır. İnanırıq ki, Türkiyənin indiki baş naziri Rəcəb Təyyib Ərdoğan cənabları, Heydər Əliyev siyasətindən dərs alaraq Türkiyədə yüz ilə yaxın davam edən qardaş qırğınına son qoyacaqdır.

Səddam kimi diktator qan tökərək hakimiyyətə gəldi, gedən günə qədər həmvətənlərinin qanını tökdü və başına gələnlər hamıya məlumdur.

Belə diktatorların sayını artırmaq olar.

Lakin bunlardan fərqli olaraq, dünya siyasətçiləri öndərlərindən olan, Ulu Öndər, Böyük Heydər Əliyev bir güllə atmadan hakimiyyətə gəldi və müdrik siyasəti nəticəsində Azərbaycanımızı inkişaf etmiş ölkələr sırasına çıxardı. Bəli, dünya siyasətçiləri, rəhbərləri Ulu Öndər, Böyük Heydər Əliyev siyasətini öyrənib və bəhrələnməlidirlər.

Zaman keçdikcə, Ulu Öndər, Böyük Heydər Əliyev siyasətinin dərinliyini daha aydın görmək olur. Təsəvvür edin, əgər Ulu Öndər, Heydər Əliyev hakimiyyətə vaxtında gəlməsəydi, atəşkəs müqaviləsi bağlanmasayıdı, ermənilər Azərbaycan torpaqlarına olan təcavüzünü bir az da genişləndirərək, özlərinin dediyi kimi, Gənsəbasar da daxil olmaqla, Kürə qədər işğal edə bilsəydilər. Bir anlığa təsəvvür edin, Gəncəbasarın köçkünləri, erməniyə girov düşənləri, Gürcüstana, Rusiyaya qaçanları, malı-mülkü bir anın içində əlindən çıxaraq girov, qaçqın-köçkün halına düşən xalqın durumu necə ola bilərdi? Onsuz da problemlər içində yaşayan Borçalı mahalındakı soydaşlarımızın durumunu, Türkiyənin Azərbaycanla və türk dünyası ilə əlaqəsinin kəsildiyini düşünərək nəticəni ağıla gətirmək kifayətdir.Ermənilərin əlinə düşəcək Mingəçevir su anbarının suyu buraxılsaydı, bir an başımıza gələcək faciələrin böyüklüyünü düşünmək lazımdır. Kür çayı hövzəsində olan şəhər, rayon və kəndlərimizin əhalisinin durumunu göz önünə gətirmək kifayətdir.

Gəncəbasarın işğalı, Avropa qapılarının, Avropa bazarının üzümüzə bağlanması demək olardı. Biz məcburi yenə də keçmiş "ağamız" olan rus çinovniklərinin boyunduruğu artına yalvararaq, xahiş edərək keçməli idik.

Hələ mən Əlikram Hümmətovun "Talış-Muğan" Respublikasından, onun gələcəkdə İran İslam Respublikasına birləşməsindən, Sürət Hüseynovun "xanlığından", şimaldan rusların ləzgilərin "Sabval" təşkilatının əli ilə Siyəzənə qədər ərazi iddiasından, Balakən, Qax, Qəbələ kimi strateji bölgələrə göz tikənlərdən danışmıram.

Dünya dövlətlərinin rəhbərləri humanistliyi, uzaqgörənliyi, əfv etməyi, bağışlamağı Azərbaycanın cavan prezidenti İlham Əliyev cənablarından öyrənməlidirlər. İlham Əliyev cənabları neçə-neçə ömürlük həbsə məhkum olunmuş insanları əfv etdi, ümidsiz ailələri sevindirdi və Azərbaycandakı münaqişə ocaqlarını uzaqgörən siyasəti ilə aradan götürdü. İlham Əliyev cənablarının humanist siyasəti Türkiyə, İran, Suriya kim ölkələrin dövlət rəhbərlərinə örnək olmalıdır.

### *"Bakı-Tibilisi-Ceyhan" əsrin dünyəvi sülh müqaviləsi*

Bizi bütün bu bəlalardan Heydər Əliyevin uzaqgörən siyasəti qurtardı. Onun uzaqgörən siyasəti, həyata keçirdiyi dünyəvi layihələr, böyük dövlətlər, beynəlxalq birliklər, təşkilatlar tərəfindən dəstəkləndi, ölkədə siyasi sabitlik yarandı və dövlətimiz quruculuq yoluna qədəm qoydu. Son illər əhalinin ölkəmizin rifahı yaxşılaşdı, yüzlərlə parklar salindı, yollar abadlaşdırıldı, əfsanəvi körpülər tikildi, yeni kəndlər, qəsəbələr inşa edildi.

Hörmətli prezidentimiz, İlham Əliyev cənablarının operativ təşkilatçılığı sayəsində "Bakı-Tibilisi-Ceyhan" neft kəməri, Bakı-Ərzurum qaz kəməri vaxtında səmərəli çəkilməsi sayəsində, yüzlərlə ölkələri Azərbaycana bağladı. Bu inkişafa görə, indi dünya dövlətləri istəsələr də, istəməsələr də bizi dəstəkləməkdədirlər.

Xəyalım məni o illərə apardı, Ulu Öndərlə olan görüşüm yada düşdü.....

1992-ci ilin dekabr ayı idi.Hər yerdə hərc-mərclik hökm sürürdü. Cəbhədə itaətsizlik, özbaşınalıq yaranmış, günü-gündən torpaqlarımız əldən gedir, şəhidlərimizin sayı artırdı. Azərbaycan yas içində idi. Ölkəmizin hər yerində yasxanalar qurulmuşdu. Hər gün cəbhədən xoşagəlməz xəbərlər gəlirdi. Heç kim, heç kimin ərizəsini oxumaq istəmirdi. Demək olar ki, ölkə idarə olunmaz xaosa çevrilmişdi.

Yuxarıda qeyd etdiyim kimi, o dövrlərdə Azərbaycanda böyük hərc-mərcliklər nəticəsində vətəndaş müharibəsinin başlamasına zəmin yaranmışdı, qardaş qırğını başlamışdı. Bunu görən xalq, xalqımızın dahi oğlu, əzəli və əbədi milli liderimiz Heydər Əliyev cənablarını Bakıya dəvət etdi

Heydər Əliyev yenidən hakimiyyətə gəldi və tariximizi, dinimizi, dilimizi, mənəviyyatımızı, parçalanmaq üzrə olan Vətənimizi xilas etdi.

O, Azərbaycan xalqını, Azərbaycan dövlətini məhv olmaqdan, dünya xəritəsindən silinməkdən birdəfəlik xilas etdi. Ölkəmizdə yaşayan milli azlıqlar Heydər Əliyevi, onun apardığı dünyəvi siyasətini böyük məhəbbətlə sevirlər və dəstəkləyirlər. Bu sevgi, bu məhəbbət xalqımızın ürəyində əbədi qalacaq. Çünki xalqımız və ölkəmiz üçün taleyüklü anlarda, düşmənlərimiz etnik azlıq amilindən istifadə etmək istədilər. Azərbaycan xalqının ayrılmaz hissəsi olan azsaylı xalqları fəlakət qarşısında idilər. Məhz vaxtında hakimiyyətə xalq tərəfindən gətirilən Heydər Əliyev cənabları onları bu fəlakətdən xilas etdi.

Üç saata qədər o müdrik insanla söhbət etdik. Olduqca sakit, səbr və təmkinlə bizi dinlədi. Müdrik, qayğılı, mavi okeanlar kimi sonsuz, dərin və mənalı gözləri ilə sanki insanların qəlbini, düşüncəsini oxuyurdu. Zaman keçdikcə, həqiqətən onun nə qədər uzaqgörən siyasətə malik olduğunu daha çox dərk etdim.

O, Azərbaycanımızın inkişafı və dirçəldilməsi üçün bir çox müqavilələr və kontraktlar bağlayıb, dəyərli görüşlər keçirib. Bu müqavilələrlə o, Azərbaycanımızı dünya dövlətlərinə tanıtdı, dünya dövlətlərini Azərbaycana bağladı və dünya səhmdarlarını Azərbaycana sərmayə qoymağa sövq etdi. Azərbaycanımız üçün çox dəyərli olan bu müqavilələrdən biri də "Bakı-Tbilisi-Ceyhan"əsrin müqaviləsidir. Bu müqavilənin imzalanmasını düşünəndə, insana yalnız iqtisadi mənfəət və neft ixracatı gəlir. Lakin bu məsələ barədə dərindən düşünəndə görürük ki, müdrik insan, xalqımızın ulu öndəri, Heydər Əliyev bu müqavilə ilə Azərbaycan, Gürcüstan, Qazaxıstan, Türkmənistan, Türkiyə, Avropanın bir sıra dövlətlərini, eləcə də ABŞ-nı və bu ölkələrlə əlaqəsi, bağlılığı olan ölkələri biri-birinə bağlayıb və sazişsiz, müqaviləsiz bu ölkələr arasında sanki sülh müqaviləsi imzalayıb. Bu ölkələr bundan belə biri-birinin müdafiəsinə qalxmağa, biri-birinin sözünü deməyə, arxa durmağa, yardım etməyə məcburdurlar. Çünki Ulu Öndərin uzaqgörən siyasəti sayəsində bu ölkələr özləri də bilmədən biri-birinə bağlandı və özü də elə güclü qüvvə ilə bağlandı ki, bu bağlı-



# 12 DEKABR ÜMUMMİLLİ LİDER, BÖYÜK HEYDƏR ƏLİYEVİN ANIM GÜNÜDÜR

# GÜLLƏ ATMADAN HAKİMİYYƏTƏ GƏLƏN DÜNYA SİYASƏTÇİSİ



lığı heç bir qüvvə poza bilməz.

Hörmətli prezidentimiz İlham Əliyev cənabları vaxtında "Bakı-Tbilisi-Ceyhan" neft kəmərinin inşasına başladı, onunla bərabər "Bakı-Qars" qaz kəmərinin bünövrəsini qoydu və həyata keçirdi. Azərbaycanımız üçün həyati əhəmiyyəti olan "Bakı-Axalkalaki-Qars" dəmir yolunun müqaviləsinə qol çəkdi və Gürcüstan, Türkiyə rəhbərləri ilə birlikdə, bu proyektin təməlini qoydu. Bu müqavilələr bir çox ölkələrə böyük həyati əhəmiyyət kəsb etsə də, hər zaman bizi və bizim kimi ölkələri "boyunduruq"da saxlayan Rusiya kimi hegemon ölkələrə sərfəli deyildi. Neçə illərdir ki, Qarabağ məsələsini meydana atan və həllinə əngəl olan Rusiya, günü-gündən qüdrətlənən, güclənən və Avropa birliyinə, NATO-ya yaxınlaşan Azərbaycanı və Gürcüstanı işğal etmək üçün yeni yollar axtardı və Qarabağ kimi, babaları Nikolayın dövründən yandırılan ocağın odu artırıldı. Gürcüstanın səbirsiz prezidenti Saakaşvilinin ucbatından ocağa benzin töküldü. Nəticədə, Rusiya Gürcüstanı işğal etmək istədi.Böyük arzularla yaşayan Rusiya, əsrlərdir həzm etdiyi Bakı neftinin Avropaya nəqlini sindirə bilmirdi. Ona görə də Gürcüstanı işğal etmək istədi ki, bəlkə Azərbaycan və Azərbaycan nefti onun ixtiyarına keçsin və Azərbaycan yenidən Rusiyanın boyunduruğuna girsin.

Lakin Rusiya hələ də başa dyşmək istəmir ki, ölməz Ümummilli lider Böyük Heydər Əliyev cənabları Azərbaycan Respublikası, Azerbaycan xalqı üçün elə bir iqtisadi-siyasi yol qoyub gedib ki, bundan belə istəsələr də Azərbaysanı Rusiyanın əsarəti altına sala bilməyəcəklər.

Necəki Rusiya Gürcüstanı işğal edə bilmədi və Gürcüstandan çıxarılarkən Osetiyanı və Abxaziyanı işğal edərək, müstəqil dövlət elan etdi. Özü də düşünmədən başını bəlaya saldı.

Onda görəsən Rusiya yüz illərdir öz azadlıqları uğrunda mübarizə aparan çeçen xalqının və Çeçenistanın, Tatarıstanın, Başqırdstanın və digər muxtar vilayətlərin müstəqilliyini niyə vermir və niyə tanımır? .Deməli, inamla deyə bilərik ki, ölməz Ümummilli liderimiz Böyük Heydər Əliyev dühası və Azərbaycan Respublikasının prezidenti, hörmətli İlham Əliyev zəkası sayəsində "Bakı-Tbilisi-Ceyhan" əsrin müqaviləsi Gürcüstanı işğal olmaqdan xilas etdi.Və bu müqavilə sayəsində Azərbaycanla Gürcüstan arasında birdəfəlik sabitliyin təməl daşının qoyulması deməkdir və Gürcüstan məsələsi buna sübutdur. Bütün dünya ictimaiyyətinin gözü qarşısında Bakı-Tbilisi-Ceyhan" əsrin müqaviləsinə imza atmış ölkələr və bilavasitə bu proyektə bağlı olan şirkətlər qalxdı, Rusiyaya beynəlxalq qanunlar çərçivəsində təsir etdilər və işğalçı rus ordusunu Gürcüstandan çıxartdılar. Və Gürcüstanın NATO-ya üzv olması məsələsi sürətləndirildi. Bu məsələləri görən ermənilər də bu həqiqəti görür və Azərbaycanla olan konfliktin həlli yollarını axtarır. Artıq ermənilər də



görür ki, Rusiya onları çıxılmaz bəlaya salıb və bu bəlanın həlli torpaqların qayıdışı və qonşuluqda sülh şəraitində yaşamaqdır. Ona görə də "Bakı-Tbilisi-Ceyhan" əsrin müqaviləsini, "Bakı-Tbilisi-Ceyhan" **əsrin dünyəvi sülh müqaviləsi** adlandırsaq daha düzgün olar.

Bəli, danılmaz faktdır ki, bu gün minlərlə müxtəlif dünya ölkələrinin şirkətləri, səhmdarları Azərbaycanda bünövrə salıb çalışırlar. Azərbaycanımız günü-gündən qüdrətlənir, inkişaf edir, gözəl binalar ucaldılır, əvəzolunmaz yollar salınır, əfsanəvi körpülər qurulur, fabrik və zavodlar açılır. Ölkəmizin hansı guşəsinə gedirsən get gözəl parklar, istirahət zonaları, abad yollar görərsən. Respublikamızın bütün şəhər, qəsəbə və kəndlərində yeni, gözəl göz oxşayan binalar tikilir, ucqar rayonlarımıza qaz və rahat yollar çəkilir. Küçələrimizdə, həyətlərimizdə, əyalətlərimizdə müxtəlif çeşidli və markalı rahat maşınlar göz oxşayır. Xalqımızın maddi durumu günü-gündən yaxşılaşır, əlil və qocaların, imtiyazlı vətəndaşlarımızın maaşları artır. Xalqımız firəvan həyat sürməyə başlayıb.

Biz inanırıq ki, xalqımız Ulu Öndərin xidmətlərini heç vaxt unutmayacaq, daim Heydər Əliyev siyasətini dəstəkləyəcək! Azərbaycan xalqı Böyük Heydər Əliyev ideyalarının həyata keçirilməsi naminə, ömrümüzün sonuna kimi çalışacağıq və onun ideyalarını yaşatmaq üçün, möhtərəm prezidentimiz, İlham Əliyev cənablarına yaxın dəstək olacağıq. Hörmətli prezidentimiz İlham Əliyev cənablarının indiki xarici və daxili siyasəti nəticəsində Vətənimiz günü-gündən çiçəklənir, gözəlləşir. Biz inanırıq ki, Vətənimiz Azərbaysan dünyanın inkişaf etmiş ölkələrinin ön sıralarında olacaqdır və hörmətli prezidentimiz İlham Əliyev cənablarının bu siyasəti nəticəsində nəinki təkcə Azərbaycanda, eləcə də Qafqazda sülh və əmin-amanlıq bərpa olacaq və dünyanın qüdrətli ölkələri bizimlə dostluq və əməkdaşlıq etməyə çalışacaqlar.

Xalqımız Respublikamızda baş verən ictimai-siyasi hadisələri görür, dəyərləndirir və lazımınca qiymətləndirir.

Hamıya məlumdur ki, hörmətli prezidentimiz İlham Əliyev cənabları, istər ölkə daxilində, istərsə də dünya dövlətləri arasında, apardığı müdrik siyasəti nəticəsində dünya dövlətləri günü-gündən qüdrətlənən Azərbaysanımızla, onun rəhbəri hörmətli prezidentimiz İlham Əliyev cənabları ilə hesablaşırlar və ona hörmət və qayğı ilə yanaşırlar belə yanaşma xalqımız üçün, Respublikamız üçün fəxrdir.

Bəli, bu gün hörmətli Prezidentimiz İlham Əliyevin xoş sədaları respublikamızın hər yerindən gəlir.Əyalətlərimizin inkişafı üçün, inamla demək olar ki, hər gün bir neçə parklar, yeni məktəb binaları, xəstəxanalar, idman kompleksləri, fabrik və zavodlar,müxtəlif elm ocaqlarının açılışını edir. Bu işlər inkar edilməzdir. Xalqın gözü tərəzidir deyiblər. Biz inanırıq ki, xalqımız ölməz Ulu Öndər Böyük Heydər Əliyev cənablarının siyasətini həyata keçirən, hörmətli prezidentimiz İlham Əliyev cənablarına arxa olacaqlar.

İnamla demək olar ki, prezidentimiz İlham Əliyev cənablarının indiki siyasəti nəticəsində Vətənimiz günü-gündən çiçəklənir, gözəlləşir və dünyanın inkişaf etmiş ölkələrinin ön sıralarıda özünə yer tutub.





*Hazırladı:*
***Tahir SÜLEYMAN***

# 12 DEKABR ÜMUMMİLLİ LİDER, BÖYÜK HEYDƏR ƏLİYEVİN ANIM GÜNÜDÜR

# Daşkəsən rayonunda xalqimizin Ümummilli Lideri Heydər Əliyevin əziz xatirəsi dərin ehtiramla yad edildi

Ümummilli Lider Heydər Əliyevin vəfatının 13-cü ildönümünə daşkəsənlilər yüksək səviyyədə hazırlıqla gəlmişdilər. Daşkəsən Rayon İcra Hakimiyyətinin Başçısı cənab Əhəd Abıyevin sərəncamına əsasən tədbirlər planı hazırlanmış, rayonda dekabr ayının 1-dən 10-dək anım günü dahi liderin ruhuna hörmət və ehtiram əlaməti olaraq silsilə tədbirlərə qeyd olunmuşdur. Tədbirlər planına uyğun olaraq rayonun ümumtəhsil məktəblərində, təhsil, səhiyyə müəssisələrində, idarə və təşkilatlarında, inzibati ərazi dairələri üzrə nümayəndəliklərində anım tədbirləri keçirilmişdir.

Ümumtəhsil məktəblərində inşa yazı, rəsm müsabiqələri, Ulu Öndərin həyat və fəaliyyətinə həsr olunmuş disputlar, kompozisiyalar, dəyirmi masalar, təhsil müəssisələrində kitab sərgiləri, foto stendlər, oxucu konfransları və həyata keçirilən digər anım tədbirləri daşkəsənlilərin Ulu Öndər Heydər Əliyevə, onun müqəddəs ideyalarına hörmət və ehtiramı olaraq iştirakçıların ürəyindən xəbər vermiş, onları Heydər Əliyev şəxsiyyətinin nümunəsində Vətənə, xalqa, torpağa daha sədaqətli olmağa ruhlandırmışdır.

Qeyd edilən tədbirlərin davamı olaraq dekabr ayının 12-də Daşkəsən Rayon İcra Hakimiyyəti və YAP Daşkəsən rayon təşkilatının birgə təşkilatçılığı ilə rayon ictimaiyyətinin 2000-dən çox nümayəndəsi Ulu Öndərin rayon mərkəzində ucalan abidəsi önünə hüznlü musiqi sədaları altında gül-çiçək dəstələri düzmüş, dahi rəhbərə sonsuz hörmət və ehtiramlarını bir daha nümayiş etdirmişlər.

Gülqoyma mərasimindən sonra tədbir iştirakçıları Heydər Əliyev Mərkəzinə baş çəkmiş, burada Ulu Öndərin həyat və fəaliyyətinin müxtəlif dövrlərinin əks olunduğu fotolara baxmışlar.

Rayon İcra Hakimiyyətinin inzibati binasında rayon ictimaiyyətinin bütün təbəqələrindən olan nümayəndələrin iştirakı ilə səmimi bir atmosferdə yığıncaq da keçirilmişdir.

Daşkəsən Rayon İcra Hakimiyyətinin Başçısı cənab Əhəd Abıyev yığıncaq iştirakçılarını salamladıqdan sonra ilk öncə Müasir Azərbaycanın memarı, qurucusu, Ulu Öndər imiz Heydər Əliyevin əziz xatirəsini bir dəqiqəlik sükutla yad etmələrini xahiş etmişdir. Film nümayişindən sonra XX əsr Azərbaycan tarixinin ən parlaq siması, qüdrətli şəxsiyyəti olan Ulu Öndər imiz Heydər Əliyevin həyat və fəaliyyətindən, onun xalqımız və dövlətimiz üçün gördüyü taleyüklü məsələlərdən danışan Rayon İcra Hakimiyyətinin Başçısı cənab Əhəd Abıyev öz çıxışında qeyd etmişdir ki, on üç il bundan qabaq Vətən öz böyük oğlunu itirmişdir. Ancaq bu on üç ilin hər bir ili Heydər Əliyev siyasətinin təntənəsi ili olmuşdur. Çünki bu on üç ildə Heydər Əliyev siyasəti çox hörmətli möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilmiş, Azərbaycan beynəlxalq aləmdə iqtisadi gücü və nüfuzu ilə böyük şöhrət qazanmışdır.

Ötən 13 il müddətində biz Ümummilli Lider Heydər Əliyevin böyüklüyünün bir daha şahidi olduq. Ötən hər gün Ulu Öndər in nə qədər böyük bir insan, şəxsiyyət, siyasətçi, dövlət xadimi, dahi olduğunu bir daha göstərdi. Zaman keçdikcə və biz dünyada baş verən siyasi prosesləri dərk etdikcə Heydər Əliyevin Azərbaycan xalqı və dövlətçiliyi üçün nə qədər cəsarətli addımlar atdığını, nə qədər ağır zəhmət, məşəqqət, fədakarlıq hesabına müstəqil Azərbaycan dövlətini qurub yaratdığını bir daha özümüz üçün aydınlaşdırmış oluruq.

Türkiyənin tanınmış dövlət xadimi Bülənt Ecevit siyasət nəhəngi Heydər Əliyevin yalnız Azərbaycan xalqı qarşısında deyil, bütün türk dünyası qarşısında xidmətlərini qiymətləndirərkən böyük fəxrlə demişdir: "Qüdrətli öndərsiz bir millət heç nəyə nail ola bilməz. Heydər Əlirza oğlu Atatürk qədər qüdrətli bir türkdür. Heydər Əlirza oğlu min ildən bir yetişən dahilərdəndir".

Ulu Öndər Heydər Əliyev həm keçmiş sovet, həm də müstəqillik dönəmində Azərbaycanın inkişafı, onun dünya dövlətləri cərgəsində layiqli yerini tutması üçün böyük əmək sərf etmiş, mənsub olduğu xalqın və eyni zamanda özünün adını əbədi olaraq tarixə yazmışdır.

Ulu Öndər in Azərbaycana rəhbərliyinin 30 ilinin az qala üçdə ikisi sovet dövrünə təsadüf etmişdir. Heydər Əliyev məhz bu illərdə, sovet imperiyasının sərt rejiminə baxmayaraq, Azərbaycanın gələcək müstəqilliyi üçün göstərdiyi misilsiz xidmətləri ilə tarixdə layiqli yerini qazanmışdır.

> ***"Zaman keçdikcə və biz dünyada baş verən siyasi prosesləri dərk etdikcə Heydər Əliyevin Azərbaycan xalqı və dövlətçiliyi üçün nə qədər cəsarətli addımlar atdığını, nə qədər ağır zəhmət, məşəqqət, fədakarlıq hesabına müstəqil Azərbaycan dövlətini qurub yaratdığını bir daha özümüz üçün aydınlaşdırmış oluruq."***
>
> ***Əhəd Abıyev***
> ***Daşkəsən Rayon İcra Hakimiyyətinin Başçısı***

Bu parlaq şəxsiyyətin həmin illərdəki fəaliyyətini araşdırdıqda Vətənini hədsiz dərəcədə sevən bir insanın ölkəsinin tarixinə, mədəniyyətinə, ədəbiyyatına son dərəcə böyük sevgi və hörmət ilə yanaşdığını görür və heyrətlənməyə bilmirsən. Ulu Öndərin xidmətlərini təhlil etdikdə aydın olur ki, bu dərin zəka sahibi hələ dövlət təhlükəsizlik orqanı kimi çox sərt rejimli bir strukturda çalışanda belə milli mənsubiyyəti ilə fəxr etmiş, qəlbində Azərbaycanın müstəqillik arzularını yaşatmışdır. Bu arzular Ulu Öndərin bütün fəaliyyəti boyu çox aydın şəkildə özünü göstərmişdir.



Heydər Əliyevin dövlətçilik səriştəsi, dərin zəkası, fenomenal yaddaşı, insanları idarə etmək bacarığı həmin vaxt SSRİ-nin tərkibində olan bütün xalqlar tərəfindən yüksək qiymətləndirilmişdir.

Ümummilli Liderimizin keçmiş Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitənin Siyasi Bürosunun üzvləri arasında xüsusi yeri hətta adi vətəndaşlar tərəfindən qürurla qeyd edilir, SSRİ-nin gələcək rəhbəri vəzifəsinə namizədlər sırasında birinci Heydər Əliyevin adı çəkilirdi. SSRİ dağıldıqdan sonra xalq arasında belə bir fikir dolaşırdı ki, əgər müəyyən məqamlarda SSRİ-nin hakimiyyət sükanı arxasında dahi Heydər Əliyev kimi güclü xarakterə malik insan olsaydı, bu qədər faciələr baş verməyəcəkdi. Bu, sovet imperiyası süquta uğrayandan sonra bütün postsovet məkanında daha çox səslənən ən populyar fikirlərdən biri idi. Çünki bu şəxsiyyətin nüfuzu, gücü və xalqın ona məhəbbəti hamıya məlum idi. Amma belə olmadı və Sovet İttifaqı dağıldı. Sovet respublikalarından ən çox zərər çəkəni isə məhz Azərbaycan oldu.

Heydər Əliyevin böyük nüfuzu Mərkəzi Komitənin sonuncu Baş Katibi Mixail Qorbaçova və onun erməni əlaltılarına öz çirkin planlarını həyata keçirməyə mane olurdu. Heydər Əliyev M.Qorbaçovun haqsız təzyiqlərinə baxmayaraq, onun yeritdiyi siyasi xətti, xüsusilə Qafqazda apardığı siyasəti kəskin şəkildə tənqid edir, yetişməkdə olan Qarabağ problemi haqqında xəbərdarlıq edirdi.

Heydər Əliyev siyasi hakimiyyətdən uzaqlaşdırıldıqdan sonra hadisələr sürətlə cərəyan etməyə başladı. Minlərlə azərbaycanlı əzəli torpaqlarından, yurd-yuvalarından qovuldu.

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Sovet qoşunları Bakını işğal edib yüzlərlə insanı gülləboran etdi.

Bu ağır faciənin acısına dözməyən Heydər Əliyev heç bir təzyiq, təqib və təhdidə məhəl qoymadan, Moskvanın mərkəzində hiddət və qəzəbini bütün dünyaya bəyan etdi.

Haqqın və ədalətin bərpası üçün isə tarixə elə də böyük vaxt lazım gəlmədi. Azərbaycan xalqı öz sevimli oğlunu, böyük dahi və parlaq şəxsiyyət Heydər Əliyevi ölkəni idarə etməyə çağırdı. Bu təkidli çağırışın arxasında sonsuz xalq etimadı, millətin məhəbbəti və sarsılmaz inamı dayanırdı.

Ulu Öndərin qayıdışı yenicə müstəqillik qazanmış Azərbaycanın az qala siyasi xəritədən silinmək ərəfəsində olduğu bir dövrə təsadüf etdi. Ermənistan silahlı birləşmələri Azərbaycan ərazilərinin böyük bir hissəsini işğal etmiş, iqtisadiyyat iflasa uğramış, silahlı qruplaşmalar arasındakı çəkişmələr vətəndaş müharibəsi həddinə çatmışdı. Xalqın son ümid yeri Heydər Əliyev idi.

Dünyanın siyasi axarını, nəhəng dövlətlərin maraqlarının kəsişən nöqtələrini çox gözəl bilən Heydər Əliyev dərin zəkası, siyasi uzaqgörənliyi və polad məntiqi ilə hər şeyi yerinə qoya bildi. Təcrübəli dövlət xadiminin böyük səyləri nəticəsində ölkədə ictimai-siyasi sabitlik bərpa olundu, ermənilər tərəfindən torpaqların işğalının qarşısı alındı, atəşkəs əldə edildi, Azərbaycanın yaxın gələcəkdə dünya siyasətində geosiyasi mövqeyini müəyyən edəcək siyasi-iqtisadi konsepsiya işlənib hazırlandı. Heydər Əliyev müstəqil Azərbaycanı siyasi fırtınaların cəngindən alıb, onun strateji mövqelərini bərpa etdi. Ona sabit ölkə imici qazandırdı.

Bütün bunlarla yanaşı, Heydər Əliyev çox böyük məharətlə ölkəmizin neft strategiyasını işləyib hazırladı. 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi" imzalandı. Bunun çox böyük iqtisadi dəyəri ilə yanaşı, siyasi əhəmiyyəti ondan ibarət idi ki, Azərbaycan dünya iqtisadi siyasətinin maraq mərkəzinə çevrildi. Heydər Əliyevin qətiyyətinin təntənəsi olan "Əsrin müqaviləsi" müstəqil ölkəmizi dünyanın qüdrətli dövlətlərinin mühüm iqtisadi tərəfdaşına çevirdi.

Ulu Öndərin neft strategiyasının yeni bir mərhələsi Bakı-Tbilisi-Ceyhan neft kəməri layihəsi oldu. Bəzi dövlətlərin qısqanclıqla yanaşdıqları və hətta reallaşacağına şübhə etdikləri Bakı-Tbilisi-Ceyhan neft kəməri layihəsi 2006-cı ildə işə salınanda BP şirkətinin prezidenti Con Braun onun əhəmiyyətindən danışaraq deyirdi: "Bakı-Tbilisi-Ceyhan neft borusunun fəaliyyətə başlaması dünyanın enerji xəritəsini dəyişdi". Amma dünyanın enerji xəritəsini dəyişən Bakı-Tbilisi-Ceyhan neft kəməri layihəsi yox, onun yaradıcısı Azərbaycanın dahi oğlu Heydər Əliyev oldu.

Ümummilli Lider müstəqil Azərbaycan iqtisadiyyatının təkcə neft sənayesi üzərində qurulmasının da gələcəkdə arzu olunan nəticələr verməyəcəyini bilirdi. Məhz ona görə də neft gəlirləri hesabına iqtisadiyyatın digər sahələrini inkişaf etdirməyin, infrastruktur layihələrinin reallaşdırılmasına çalışmağın vacib olduğunu qeyd edir və buna səy göstərirdi.

Ulu Öndərin təşəbbüskarlığı, qətiyyətli və prinsipial qərarları Azərbaycan iqtisadiyyatını tədricən dirçəltdi, ona yeni nəfəs verdi. Qısa müddətdə bazar iqtisadiyyatına keçidin qanunvericilik bazası formalaşmağa, iqtisadi həyatımızda sahibkarlıq fəaliyyəti yaranmağa başladı.

Böyük dövlət xadimi Heydər Əliyev yüksək diplomatik səviyyə nümayiş etdirərək, öz şəxsi nüfuzu sayəsində Azərbaycanı beynəlxalq siyasətin diqqət mərkəzinə çəkir, tanıdır və başqalarını ona inanmağa, hörmət etməyə, sözünü eşitməyə məcbur edirdi.

1995-ci ildə müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası qəbul edildi. Ümummilli Liderin təşəbbüsü və rəhbərliyi ilə hazırlanan bu ali sənəd Azərbaycanda insan hüquq və azadlıqlarının qorunması və təmin olunmasında yeni mərhələ açdı. 1998-ci ildə Şərqdə ilk dəfə olaraq Azərbaycanda ölüm hökmü ləğv olundu.

Heydər Əliyev üçün müstəqil Azərbaycan fəlsəfəsinin təməlində azadlıq, demokratiya, iqtisadi tərəqqi, sosial ədalət və rifah dururdu. Bu fəlsəfə onun məramı olduğu müstəqil Azərbaycanda öz real əksini tapdı.

Ulu Öndər özünün başladığı nəhəng işlərin uğurlu icrasının davamını kimin təmin edə biləcəyini də müəyyənləşdirdi. Fiziki imkanlarının tükəndiyi bir vaxtda həmişə inandığı və etibar etdiyi xalqına müraciət ünvanladı. Ulu Öndərin müraciətində deyilirdi: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Tarix dahi şəxsiyyətin uzaqgörənliyini yenə təsdiqlədi. Bunun üçün elə də böyük vaxt lazım olmadı. Əməli fəaliyyəti, xalqına və Vətəninə məhəbbəti ilə ümumxalq sevgisi qazanan möhtərəm Prezident cənab İlham Əliyev artıq üçüncü dövr üçün dövlətimizin başçısı seçilmişdir və Ulu Öndər tərəfindən qarşıya qoyulmuş vəzifələrin öhdəsindən layiqincə gəlir.

Ulu Öndər Heydər Əliyev siyasi kursunun ən layiqli davamçısı möhtərəm Prezident cənab İlham Əliyevin həyata keçirdiyi siyasət nəticəsində Azərbaycanın regionun lider dövlətinə çevrilməsi, beynəlxalq birlikdəki yerini möhkəmləndirməsi, söz sahibi olması dünya miqyasında artıq tam qəbul edilən reallıqdır. Məhz bu uğurlar cənab Prezident İlham Əliyevə xalqın sonsuz rəğbət və hörmətini qazandırmışdır.

Qəti əminliklə deyə bilərik ki, dünyanın ən mötəbər beynəlxalq təşkilatlarının üzvü olan Azərbaycanda əldə edilən bu uğurlar dövlətimizin apardığı düzgün siyasət və xalqımızın zəhməti, əzmi, iradəsi hesabına qazanılmışdır. Əldə edilən nailiyyətlərin və inkişaf yolumuzun ən parlaq nəticəsi ondan ibarətdir ki, bu gün Azərbaycan, sözün əsl mənasında, tam müstəqil dövlətdir. Ölkəmizdə gerçəkləşdirilən siyasət daim xalqın maraqlarına xidmət göstərir və Azərbaycan bu illərdə qazandığı uğur və nəticələrə dayanaraq XXI əsrin daha möhtəşəm tarixini yazmaqdadır, irimiqyaslı və nəhəng vəzifələrin həllini hədəf götürür. Həmin inkişafın başlıca yekunlarından biri də dövlət başçısı cənab İlham Əliyevin bu sözlərində bariz ifadəsini tapmışdır: "Azərbaycan bu illər ərzində həm öz vətəndaşlarına, həm də dünyaya sübut etdi ki, biz müstəqil ölkə, azad xalq kimi yaşayırıq və yaşaya bilərik!"

Daşkəsənlilər yaxşı bilirlər ki, Ulu Öndər həmişə xalqına, Vətəninə bağlı olmuş, öz cəsarəti, müdrikliyi, vətənpərvərliyi ilə xalqımızın keşiyində durmuş, ən çətin anlarda həyatını xalqımızın milli amallarına qurban verməyə hazır olduğunu dəfələrlə sübut etmişdir. Bugünkü müstəqil, demokratik Azərbaycan dövləti Ulu Öndər Heydər Əliyevin yaratdığı şah əsərdir. Bu gün bura toplaşmağımız da ömrünü xalqının xoşbəxtliyinə həsr etmiş böyük, dahi Ulu Öndərin əziz xatirəsinə göstərilən dərin məhəbbət və ehtiramın bir ifadəsidir.

Ümummilli Liderimiz Heydər Əliyevin adı qədirbilən Azərbaycan xalqının qəlbində daim yaşayacaqdır.

Allah Ulu Öndər Heydər Əliyevə rəhmət eləsin!

Əziz Ruhu şad olsun!

# 12 DEKABR ÜMUMMİLLİ LİDER, BÖYÜK HEYDƏR ƏLİYEVİN ANIM GÜNÜDÜR

## Tərtərlilər böyük hüznlə Ümummilli liderin xatirəsini yad etdilər

Azərbaycan xalqının Umummilli lideri Heydər Əliyevin şəhərin mərkəzi meydanında anım mərasimi keçirildi. Minlərlə rayon sakini Ulu Öndərin abidəsinin önünə gül-çiçək dəstələri qoyaraq xatirəsini ehtiramla yad etdilər.



Sonra tədbir iştirakçıları Heydər Əliyev Mərkəzində əvvəlcə dahi şəxsiyyətin büstü önünə gül dəstələri qoyub, sonra onun həyat və fəaliyyətini əks etdirən eksponatlarla, fotosentlərlə tanış olub, “Dəyirmi masa” arxasına keçdilər. Əvvəlcə Ulu Öndərin xatirəsi bir dəqiqəlik sukutla yad edildi. Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov Umummilli liderin həyat və fəaliyyəti ilə bağlı məruzə etdi. Bildirdi ki, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünya şöhrətli siyasi xadim, türk dünyasının böyük oğlu, xalqımızın ümummilli lideri Heydər Əliyevin vəfatından on üç il keçir. Ulu öndərimizin, əbədiyaşar Prezidentimizin Fəxri xiyabandakı məzarı ötən illər ərzində xalqımızın müqəddəs ziyarətgahına, gənclərin and yerinə çevrilib.

Rayon rəhbəri qeyd etdi ki, Azərbaycanın ən yeni tarixinin bütöv bir qərinəsi Heydər Əliyevin adı ilə bağlıdır. 1969-cu ildən başlayaraq 34 illik bir dövrü əhatə edən Azərbaycanın ən yeni tarixi, ölkəmizin həyatının bütün sahələrində əldə edilmiş möhtəşəm nailiyyətlər dahi şəxsiyyət Heydər Əliyevin müdrik dövlətçilik siyasəti ilə bağlıdır. "Azərbaycan tarixinin Heydər Əliyev mərhələsi" kimi qiymətləndirilən bu dövrdə ulu öndərimiz tərəfindən görülən böyük işlərin, onun həyata keçirdiyi xilaskarlıq və quruculuq missiyalarının məntiqi nəticəsidir ki, bu gün xalqımız demokratik və hüquqi bir dövlətdə yaşamaq imkanı əldə etmiş, xoşbəxt gələcəyi üçün bütün təminatları yaradıb, ən başlıcası isə siyasi və iqtisadi müstəqilliyə nail olub. Ulu öndərin uzaqgörən daxili və xarici siyasəti nəticəsində ölkəmiz dünyanın və regionun inkişaf etmiş dövlətinə çevrilib. Artıq Azərbaycan regionun iqtisadi və siyasi mərkəzlərindən biridir. Regionda ölkəmizin iştirakı olmadan heç bir qlobal layihə həyata keçirilmir. Bu gün Respublika prezidenti cənab İlham Əliyev ümummilli lider Heydər Əliyevin siyasi kursunun ən layiqli davamçısıdır.

Tədbirin sonunda Umummilli liderin həyat və fəaliyyətindən bəhs edən film nümayiş etdirildi. Sonra Ulu öndərin anım günü münasibəti ilə ehsan verildi.

## Sabunçu rayonunda Ulu Öndər Heydər Əliyevin əbədiyyətə qovuşmasının on üçüncü ildönümünə həsr olunmuş anım tədbiri keçirildi

Sabunçu qəsəbəsi 148 nömrəli tam orta məktəbdə Ulu Öndər Heydər Əliyevin əbədiyyətə qovuşmasının on üçüncü ildönümünə həsr olunmuş anım tədbiri keçirildi. Tədbirdə Sabunçu Rayon İcra Hakimiyyətinin başçısı Adil Vəliyev, millət vəkili Dilarə Cəbrayılova, RİH başçısının müavinləri, şöbə müdirləri, Yeni Azərbaycan Partiyasl Sabunçu Rayon Təşkilatının sədri Mehriban Abasquliyeva, rayon hüquq mühafizə orqanlarının rəhbərləri, icra strukturlarının, təhsil, səhiyyə və mədəniyyət müəssisələrinin rəhbərləri və rayon ictimaiyyətinin nümayəndələri iştirak etdilər.




İlk olaraq tədbir iştirakçıları Ulu öndər Heydər Əliyevin Sabunçu Rayon İcra Hakimiyyətinin inzibati binasında ucaldılmış abidəsi önünə gül dəstələri qoyaraq dahi şəxsiyyətin ruhuna öz ehtiramlarını bildirdilər. Azərbaycan Respublikasının Dövlət Himni səsləndikdən sonra Ulu öndər Heydər Əliyevin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Sonra 148 nömrəli tam orta məktəbin şagirdləri tərəfindən dahi şəxsiyyətin mənalı ömür yolu, həyat və fəaliyyətini əks etdirən bədii kompozisiya təqdim olundu.

Tədbirdə Sabunçu Rayon İcra Hakimiyyətinin başçısı Adil Vəliyev çıxış edərək : “Heydər Əliyev elə şəxsiyyətdir ki, onun adı Azərbaycan tarixinə qızıl hərflərlə yazılmışdır. Dahi rəhbər hakimiyyətdə olduğu illərdə respublikamız böyük inkişaf yolu keçmiş, onun müdrik, uzaqgörən siyasəti sayəsində xalqımızın adı dünya xalqları arasında özünə layiqli yer tutmuşdur. A.Vəliyev ulu öndər Heydər Əliyevin Azərbaycanın bərpa etdiyi müstəqilliyi üçün təhlükənin yarandığı bir dövrdə xalqın təkidli tələbi ilə Azərbaycan rəhbərliyinə gəldiyini, həmin dövrdə Heydər Əliyevin müdrik siyasəti nəticəsində müstəqilliyin qorunub saxlanıldığını, onun müasir Azərbaycan Respublikasının banisi olduğunu vurğulayıb. Dağlıq Qarabağ münaqişəsinin atəşkəs rejiminin əldə olunması, Ermənistanın təcavüzkar siyasətinin, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması və Azərbaycan Respublikasının bugünkü sürətli sosial-iqtisadi inkişafının, sabitliyinin Heydər Əliyev siyasətinin nəticələri olduğunu qeyd etmiş, hazırda da bu müdrik siyasətin ölkə rəhbərimiz cənab İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini diqqətə çatdırdı. Sonda 148 nömrəli tam orta məktəbin ibtidai sinif şagirdlərindən ibarət “Gənc Heydərçilər” xorunun ifasında “Əbədiyaşar Liderimiz” mahnısı səsləndi.

## Sumqayıtda Ümummilli Lider Heydər Əliyevin xatirəsi anıldı

Ümummilli lider Heydər Əliyevin anım günü Sumqayıtda da qeyd olunub. Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov, millət vəkilləri, hüquq-mühafizə orqanlarının, müəssisə, idarə və təşkilatların əməkdaşları, veteranlar, ictimaiyyət



nümayəndələri Ulu Öndərin adını daşıyan parkda Heydər Əliyevin abidəsini ziyarət edib, önünə gül dəstələri düzərək xatirəsinə ehtiramlarını bildiriblər.

Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib, dahi rəhbərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Azərbaycan tarixinin son 35 ilə yaxın bir dövründə ölkəmizin ictimai-siyasi, iqtisadi, elmi və mədəni həyatının elə bir sahəsi yoxdur ki, orada xalqımızın müdrik oğlu Heydər Əliyevin möhtəşəm quruculuq amallarının yadigarları olmasın. Sumqayıtda sənayenin, elmin və təhsilin, sosial həyatın coşğun inkişafı məhz Heydər Əliyevin adı ilə bağlıdır. Sumqayıt Ümummilli Liderin Azərbaycana rəhbərlik etdiyi illərdə sürətli inkişaf yolu keçərək ölkəmizin aparıcı sənaye mərkəzlərindən birinə çevrilib. Burada keçmiş ittifaqda metallurgiya, kimya, energetika, tikinti materialları sənayesinin aparıcı müəssisələri yaradılmış, yeni mikrorayonlar, yaşayış məhəllələri salınmışdır. Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə gənclik və sənaye şəhəri olan Sumqayıta çoxsaylı səfərləri zamanı sənaye müəssisələrinin açılışlarında iştirak edib.

Sumqayıt bu gün də Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla inkişaf edir, regionun sənaye mərkəzinə çevrilir.

Mərasimin sonunda Ulu Öndərin anım günü ilə əlaqədar ehsan süfrəsi açılıb.

## Samuxda Ümummilli Lider Heydər Əliyevin anım günü qeyd edildi

Samux rayonunda Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anım mərasimi keçirildi. Tədbir Ulu Öndərin Heydər Parkında ucaldılmış abidəsinin önünə tər çiçəklər qoyulması ilə başladı. Tədbir iştirakçıları sonra Heydər Əliyev muzeyində Ulu Öndərin həyat və yaradıclığını əks etdirən fotestentlərlə tanış oldular.



Tədbir Heydər Əliyevin anım mərasimi ilə əlaqədar təşkil edilmiş tədbir ilə davam etdirildi. Mərasimi giriş sözü ilə Samux rayon İcra Hakimiyyətinin başçısı Alı Qocayev açaraq, müasir müstəqil Azərbaycanın memarı və qurucusu, xalqımızın müdrik rəhbəri, dünya şöhrətli siyasi xadim, türk dünyasının böyük oğlu H.Əliyevin xalqımızın qarşısında göstərtdiyi xidmətlərdən, hüquqi dövlət quruculuğu istiqamətində həyata keçiridiyi uğurlu siyasət haqqında tədbir iştirakçılarına məlumat verdi.

O, qeyd etdi ki, bu gün Azərbaycan iqtisadiyyatının yüksək səviyyədə inkişafının təməli məhz Heydər Əliyev tərəfindən qoyulan strateji xətt üzrə həyata keçirilir. Azərbaycan xalqının sosial-iqtisadi rifahı günü-gündən yüksəlir, ölkənin siyasi potensialı güclənmiş və regionda lider dövlətə çevrilmişdir. Daha sonra natiq qeyd etdi ki, Heydər Əliyev dahi bir şəxsiyyət kimi, böyük ideyaların müəllifi kimi nəsildən-nəslə keçərək Azərbaycan xalqının qəlbində daimi yaşayacaqdır.

## 12 DEKABR ÜMUMMİLLİ LİDER, BÖYÜK HEYDƏR ƏLİYEVİN ANIM GÜNÜDÜR

# ÖMRÜNÜ-GÜNÜNÜ XALQINA HƏSR EDƏN DAHİ İNSAN









1993-2003-cü illərdə Azərbaycan Respublikasının Prezidenti olmuş Heydər Əlirza oğlu Əliyev 1923-cü ildə Naxçıvanda anadan olub. 1939-cu ildə Pedoqoji texnikumu, 1957-ci ildə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsini bitirib. 1941-1944-cü illərdə Naxçıvan MSSR-də SSRİ-nin Daxili Məsələlər Üzrə Milli Komissarlığında, 1944-cü ilin mayında isə Dövlət Təhlükəsizlik Orqanlarında çalışmağa başlayıb. 1964-cü ildə Heydər Əliyev Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsinin sədr müavini, 1967-ci ildən isə Komitənin sədri təyin edilib.

## Dahi şəxsiyyətin keşməkeşli ömr yolu

1969-cu ilin iyul ayından Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin I katibi seçilib.

1982-1987-ci illərdə SSR Nazirlər Soveti sədrinin I müavini vəzifəsinə yüksəlib, eyni vaxtda, 1986-cı ildən SSRİ Nazirlər Soveti Sosial-İnkişaf Bürosunun sədri olub. 8-11-ci çağırışlarda SSRİ Ali Sovetinə deputat seçilib.

1987-ci ildə təqaüdə çıxsa da, 3 ildən sonra yenidən siyasətə qayıdıb. 1990-cı ilin yanvarında Bakıda qanlı hadisələr dövründə Heydər Əliyev Azərbaycan SSR-nin Moskvadakı nümayəndəliyinə gələrək Qorbaçov siyasətinə qarşı kəskin çıxış edir. 1991-ci ilin iyulunda isə Heydər Əliyev Sovet İttifaqı Kommunist Partiyası sıralarından çıxır.

Vətənə qayıdan Heydər Əliyev 1991-ci ildə Naxçıvan MR-nin Ali Məclisinin sədri seçilir. 1993-cü ilin yayında Azərbaycanın Prezidenti Əbülfəz Elçibəy başda Sürət Hüseynov olmaqla qiyamçıların təzyiqi altında Bakını tərk edərkən Heydər Əliyev paytaxta gəlir və Azərbaycan Ali





Sovetinin sədri seçilir və bir neçə gün sonra Ali Sovetin qərarı ilə Prezidentin səlahiyyətləri ona verilir. Həmin ilin oktyabrında isə Prezident seçilir.

Dövlətə başçılıq edən Heydər Əliyev Qarabağda müharibəni dayandırır, "Əsrin müqaviləsi"ni imzalayır, 1998-ci ildə isə yenidən Prezident seçiləndən sonra "Əsrin tikintisi" - Bakı-Tbilisi-Ceyhan kəmərinin tikintisinin təşəbbüskarı olur. 2003-cü ilin Prezident seçkilərində isə son anda İlham Əliyevin xeyrinə namizədliyini geri götürür. Heydər Əliyev müstəqillik dövründə yenidən hakimiyyətə qayıtdıqdan sonra ölkədə sabitlik, əmin-amanlıq yaradıb, qanunsuz silahlı qruplaşmaların fəaliyyətinə son qoyub. Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə nizamlanması və cəbhədə atəşkəsin elan olunması dövrünün başlanması onun adıyla bağlıdır. Avropada Qərbin diplomatik dairələrində onu sabitliyin qarantı və yeni iqtisadi islahatların aparıcısı kimi tanıyırlar.



Heydər Əliyev bütün ömrünü Azərbaycan xalqının xoşbəxt gələcəyinin qurulmasına həsr edib.

Azərbaycan tarixinin təxminən 34 illik bütöv bir dövrü onun adı ilə bağlıdır.

Heydər Əliyevin işıqlı xatirəsi Azərbaycan xalqının yaddaşında daima yaşayacaq!

### Yeni Azərbaycanın qurucusu

İstər Sovet hakimiyyəti illərində, istərsə də müstəqillik dövründə Heydər Əliyev Azərbaycanın inkişafı naminə əlindən gələni əsirgəməyib. Xüsusilə də son on ildə Azərbaycanda dövlət quruculuğu sahəsində onun rolu müstəsnadır. Heydər Əliyev respublikamızın ilk prezidenti olmasa da, onun dövlətçiliyimizin möhkəmlənməsi, bir növ yenidən qurulması istiqamətində göstərdiyi səylər əvəzedilməzdir. Təsadüfi deyil ki, onun adının qarşısına artırılan və ən çox istifadə edilən ifadələrdən biri də "Yeni Azərbaycanın qurucusu" sözləridir.

## 12 DEKABR ÜMUMMİLLİ LİDER, BÖYÜK HEYDƏR ƏLİYEVİN ANIM GÜNÜDÜR

# ÖMRÜNÜ-GÜNÜNÜ XALQINA HƏSR EDƏN DAHİ İNSAN








# Dahi şəxsiyyətin keşməkeşli ömr yolu



90-cı illərin əvvəllərində SSRİ-nin məngənəsindən yenicə çıxan və özünün ilkin müstəqilliyindən 71 il aralı qalan Azərbaycanın dövlətçiliyinin restavrasiyasına öndərlik edə biləcək və böyük təcrübəyə malik bir insana olan ehtiyac özünü açıq şəkildə büruzə verirdi. Sovetlər İttifaqı son anlarını yaşasa da, onun məkrli rəhbərləri müstəqilliyə can atan respublikaların qarşısına müxtəlif əngəllər çıxarmağa cəhd göstərirdilər. İstər Ermənistan azərbaycanlılarının deportasiyası, istərsə də, 20 Yanvar faciəsi bu əngəllərin təzahürü idi. Lakin bütün bunlara baxmayaraq, xalqımızın iradəsi və azadlıq eşqi qəhrəman övladlarının qanı bahasına müstəqilliyi təmin etdi. Lakin müstəqillikdən sonra daha məsuliyyətli bir proses başladı. Çünki müstəqilliyi qorumaq onu əldə etməkdən daha çətin idi.

Bu mənada dövlət strukturlarının möhkəmləndirilməsi xüsusi əhəmiyyət kəsb edirdi. Heydər Əliyev məhz bu məqamda Naxçıvandan Bakıya rəsmən dəvət edildi. O andan etibarən Azərbaycanın dövlət quruculuğu sahəsində canlanma müşahidə olunmağa başladı. Hər şeydən əvvəl, o, daxildə Azərbaycanın bütövlüyünə xələl gətirməyə çalışan və mərkəzə tabe olmaqdan boyun qaçıran bir qrup qüvvəni zərərsizləşdirdi. Daha sonra müxtəlif səpgili islahatlar həyata keçirməklə böyük quruculuq işlərini davam etdirdi.

Heydər Əliyevin onilliklərə söykənən təcrübəsi və uzaqgörənliyi iqtisadiyyat, milli siyasət, mədəniyyət və digər sahələrin yeni məzmunda formalaşdırılmasına xüsusi kömək göstərdi. Onun məqsədyönlü səyləri nəticəsində yeni Azərbaycan quruldu, Sovet Azərbaycanından tamamilə fərqlənən yeni məzmunlu Azərbaycan çiçəklənməyə başladı. Heydər Əliyev dövlətçiliyin təməllərini sarsılmazlığını elə təmin etdi ki, bu gün hər bir sıravi Azərbaycan vətəndaşı bu sistemin uzun müddət yaşayacağına inanır.

**Hazırladı: Tahir SÜLEYMAN**





## 12 DEKABR ÜMUMMİLLİ LİDER, BÖYÜK HEYDƏR ƏLİYEVİN ANIM GÜNÜDÜR

# AZƏRBAYCANIN XİLASKARI

Tарих Azərbaycan xalqına XX əsrdə, tarixə qızıl hərflərlə yazılacaq bir görkəmli insan bəxş etmişdir. Öz xidmətləri ilə xalqımızın məhəbbətini qazanan, Azərbaycan dövlətini quran və xalqın dar günündə xilaskarı, Azərbaycanı canı qədər sevən, Azərbaycan uğrunda məhrumiyyətlərə dözüb mübarizəsini yarımçıq qoymayan, böyük və xoşbəxt suveren Azərbaycan dövləti quran Heydər Əliyev oldu.

Heydər Əliyev hamıya bəlli olan qurub yaradan insan olub. Bu gün bütün bölgələrdə tikilib istifadəyə verilmiş yaraşıqlı binalar, məktəblər, idman kompleksləri, neçə-neçə park, bağ, mədəniyyət, incəsənət obyektləri Heydər Əliyevin təşəbbüsünün nəticəsidir. Heydər Əliyev xalqını sevən, onun dilini gözəl bilən, dilin saflığı uğrunda mübarizə aparan əsl azərbaycanlı, böyük filosofdur.



Heydər Əliyev şəxsiyyətinin uzaqgörən və müdrik addımlarından biri də, ən əhəmiyyətlisi özündən sonra ölkəyə əziz sələfi, Heydər Əliyev siyasətinin bütün incəliklərini mənimsəmiş, xalqını sevən, dünya siyasi arenasında özünəməxsus nüfuzu olan hörmətli İlham Əliyevi rəhbərliyə tövsiyyə etmişdir. Böyük siyasi təcrübəyə malik olan müdrik siyasətçi Heydər Əliyev Dövlətçiliyimizin məhv olmaq təhlükəsi qarşılığında qaldığı bir dövrdə xalq tərəfindən gözəl qarşılandı. Hörmətli Prezidentimiz Heydər Əliyev dahi şəxsiyyətə layiq səviyədə atdığı addımlar onu göstərir ki, Heydər Əliyev şəxsiyyəti həm cismən, həm də ruhən yaşamaqdadır. O, Azərbaycanı yeni qələbələrə aparır. Respublikamız dünyaya inteqrasiya olundu. Ölkəmizin suveren dövlət olduğu sübut olundu. Ümumilli liderimizin yüksək fəaliyyəti nəticəsində xalqımızın rifahı xeyli yüksəldi. Beləliklə Azərbaycanın dövlət müstəqilliyi qorunub saxlanıldı. Azərbaycanı gözəl ölkəyə çevirən Heydər Əliyev nurlu xatirəsi qəlbimizdə əbədi qalacaqdır.

Allah rəhmət eləsin, ruhu şad olsun.



Namiq Həsənov

# Müstəqil Azərbaycan ulu öndər Heydər Əliyevin möhkəm təməl üzərində ucaltdığı əzəmətli abidədir

Heydər Əliyevin rəhbərliyi altında aparılmış son dərəcə gərgin fəaliyyət nəticəsində Azərbaycan xalqının taleyi ilə pərdəarxası oyunlara, siyasi anarxiya və eksperimentlərə son qoyulmuş, ölkədə cinayətkarlığın qarşısı tam alınmış, bütün qanunsuz silahlı dəstələr ləğv olunmuşdu ki, bunlar da bütövlükdə Azərbaycanda dövlət quruculuğu prosesinin uğurla aparılması üçün şərait yaratmışdı. Azərbaycan dövlətçiliyinin mövcudluğuna böyük təhlükə olan 1994-cü il oktyabr və 1995-ci il mart dövlət çevrilişi cəhdlərinin qarşısı Heydər Əliyevin qətiyyəti sayəsində alınmış, dövlət müstəqilliyi qorunub saxlanmışdır. Məhz buna görə də ölkəmizdə müstəqil dövlət təsisatlarının yaranması və dövlət quruculuğu prosesi böyük vüsət almışdı ki, bunun da əsasını müstəqil Azərbaycanın qəbul etdiyi ilk Konstitusiya təşkil edirdi. Ondan sonrakı dövrdə Azərbaycanda dövlətçiliyin möhkəmlənməsi və demokratik prinsiplərin bərqərar olması, demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesinin uğurla, sürətlə həyata keçirilməsi şəxsən Heydər Əliyevin adı ilə bağlıdır.

Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə başlıca qayəsini müstəqillik, azərbaycançılıq, dövlətçilik, ədalətlilik, demokratiya, milli tərəqqi, dünyəvilik kimi ümumbəşəri dəyərlər təşkil edən yeni bir ideologiyanın əsası qoyulmuşdur. Heydər Əliyevin apardığı daxili siyasət Azərbaycanın hər bir vətəndaşına azad, sərbəst yaşamaq hüquqlarını təmin etmək və öz rifahını yaxşılaşdırmaq imkanları yaratmaqdan ibarət olub. Heydər Əliyevin fəaliyyətində



iqtisadi islahatlar, bazar iqtisadiyyatının bərqərar olması, iqtisadi inkişafın təmin edilməsi, Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyası, özəlləşdirmə proqramının, aqrar islahatların həyata keçirilməsi ardıcıl prioritet sahələr olub. Heydər Əliyev demokratik, hüquqi dövlət quruculuğu istiqamətində davamlı siyasət yeridərək, ölkədə insan hüquq və azadlıqlarının başlıca prinsiplərinin bərqərar olması üçün əsaslı zəmin yaradıb. Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan dövlətinin xarici siyasəti, dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara və uzaqgörən siyasi perspektivlərə əsaslanan xətlə inkişaf etməyə başlayıb.

Heydər Əliyevin xarici siyasət məsələlərinə müstəsna əhəmiyyət verməsi, beynəlxalq miqyasda etiraf olunan uğurlu və cəsarətli addımlar atması, milli məqsədlər naminə ən nüfuzlu tribunalardan bacarıq və məharətlə istifadə etməsi Azərbaycan dövlətçiliyinin bu günü və gələcəyi baxımından son dərəcə əhəmiyyətli olub.

Heydər Əliyevin fəal diplomatiyası nəticəsində Azərbaycan dünyanın demokratik dövlətlərinin və aparıcı ictimai təşkilatlarının ölkəmizə, onun zorla cəlb olunduğu silahlı münaqişəyə münasibətinin əsaslı surətdə dəyişməsinə nail ola bilib. Heydər Əliyevin xarici siyasətinin əsasını sülh, beynəlxalq hüquq normalarına, sərhədlərin bütövlüyünə və toxunulmazlığına, dövlətlərin ərazi bütövlüyünə hörmət və qarşılıqlı surətdə faydalı əməkdaşlıq prinsipləri təşkil edib.

Onun dünya təcrübəsinin bütün nailiyyətlərini, sivil beynəlxalq normaları özündə tam əks etdirən sülhsevər xarici siyasətinin əsasında isə, ilk növbədə, milli müstəqilliyin möhkəmləndirilməsi, dövlətlərin hüquqlarına hörmətlə yanaşılması, bütün mübahisəli məsələlərin sülh və danışıqlar yolu ilə həll edilməsi, qarşılıqlı surətdə faydalı iqtisadi, elmi və mədəni əməkdaşlıq yaradılması, dövlətlərarası əlaqələrə mane olan hər cür məhdudiyyətlərin aradan qaldırılması prinsipləri dayanırdı. Heydər Əliyev 1992-ci ildən başlayaraq türkdilli dövlətlər arasında iqtisadi, siyasi, ədəbi-mədəni əlaqələrin genişləndirilməsi və möhkəmləndirilməsi sahəsində də gərgin fəaliyyət göstərib. O, bütün türk dünyasının ən nüfuzlu şəxsiyyəti kimi şöhrət qazanıb. Heydər Əliyev Azərbaycanın təbii sərvətlərindən, əlverişli coğrafi-strateji mövqeyinin üstünlüklərindən ölkənin milli mənafelərinə uyğun şəkildə istifadə edilməsinə yönəldilmiş irimiqyaslı beynəlxalq iqtisadi sazişlərin işlənib hazırlanması və həyata keçirilməsi sahəsində son dərəcə gərgin və səmərəli fəaliyyət göstərib. Onun böyük siyasi iradəsi və müdrik uzaqgörənliyi sayəsində əhəmiyyətli beynəlxalq müqavilələrə imza atılmış və onların həyata keçirilməsinə başlanıb. Heydər Əliyevin təşəbbüsü ilə böyük siyasi məna kəsb edən bir sıra dünya miqyaslı iqtisadi proqramların həyata keçirilməsində Azərbaycan aparıcı rol oynayıb. Böyük bir coğrafi məkanda region qüvvələrinin birləşməsində də Heydər Əliyevin danılmaz xidmətləri olub. Tarixin amansız və sərt sınaqları dövründə dünyanın ayrı-ayrı ölkələrinə səpələnərək yaşamaq məcburiyyətində qalmış azərbaycanlıların birlik və həmrəyliyinin əldə edilməsi işində Heydər Əliyevin müstəsna xidmətləri vardır. O, dünya azərbaycanlılarının təşkilatlanması və onların bir Vətən - müstəqil Azərbaycan ətrafında sıx birləşməsi üçün daim və əzmlə səy göstərmiş, bu istiqamətdə son dərəcə qiymətli qərarlar qəbul edib. Heydər Əliyevin siyasi, iqtisadi, ictimai və mədəni həyatın bütün sahələrində həyata keçirdiyi planlar artıq Azərbaycanın gerçəkliyinə çevrilmişdir. Onun fəaliyyəti də, şəxsiyyəti də Azərbaycan tarixinin ayrılmaz bir hissəsini təşkil edir. Hər bir azərbaycanlının taleyində Heydər Əliyev dühasının bir zərrəsi var. Heydər Əliyev bizim dahi müasirimizdir. Bu faktın özü hər bir azərbaycanlı üçün qürur və iftixar mənbəyidir. Heydər Əliyev eyni zamanda, taleyin xalqımıza bəxş etdiyi böyük tarixi şəxsiyyətdir. O, Azərbaycanın tarixi inkişaf prosesinə təkan vermişdir. Müstəqil Azərbaycan dövlətinin qurucusu kimi milli dövlətçiliyimizin ideya əsasını məhz Heydər Əliyev yaradıb. Bütün mənalı həyatını öz xalqına bəxş etmiş Heydər Əliyevin siyasi və dövlət xadimi kimi zəngin fəaliyyəti Azərbaycan xalqının tarixində dərin iz buraxaraq, əsl dövlət idarəçiliyi məktəbinə çevrilib. Azərbaycan xalqının hələ neçə-neçə nəsli bu böyük məktəbdən, Heydər Əliyevin zəngin siyasi irsindən ölkəmizin inkişafı, xalqımızın rifahı naminə faydalanacaq.

***İsmayıl Tahir***

# “Kəlbəcər təhsili Cəfər müəllimin, “Qara Bəhmən”in adı ilə bağı idi”

**(Əvvəli ötən sayımızda)**



**- Tədris hissə müdirindən sonra direktor oldunuz?**

- Bir xeyli tədris hissə müdiri işlədim. 1971-ci ildə Şamil müəllim “ispalkom”a gedəndə Qənbər Qurbanov məktəbə direktor gəldi və bir il onunla işlədik. Sonradan Qənbər müəllim ikinci katib vəzifəsinə getdi. Mənim də məktəb direktoru olmaq məsələm vardı. Amma sonradan mən məzuniyyətə gedib qayıdanda gördüm ki, Azay müəllimi direktor qoyublar. Mən Azay müəllimə dedim ki, mənə tədris hissə müdiri kimi dərs nəzərdə tutmayın, dərs demək istəyirəm. O da gördü ki, mən narazıyam. Elə həmin ərəfədə Şamil müəllim maarif müdiri təyin olunmuşdu. Bir gün Qənbər müəllim məni çağırdı ki, səni maarifə inspektor göndərmək istəyirik. Sonradan məni birinci katib Murtuzayev də yanına dəvət etdi. O da məni maarifə inspektor göndərmək istədiklərini bildirdi. O zaman bildirdim ki, mənim qoca ata-anam var. Müəllimlikdən 200 manat alıram. İnspektorun maası isə 80 manatdır. O pulla dolana bilmərəm. Sonradan mənə 12 saat dərs də verdilər. Bir il dərsləri də apardım. Amma sonra gördüm ki, dərslə birlikdə inspektorluq alınmır. Daha dərs demədim. Beləliklə, 1971-ci ildən başladim Şamil müəllimlə inspektor kimi işləməyə. Hamı deyirdi ki, Şamil müəllim çətin adamdır, sən onunla necə işləyirsən. Deyirdim ki, harda işləyirsən işlə, düzgün adam olsan, işin gedəcək. Mən çox adamla işləmişəm, amma Şamil müəllim qədər beyni güclü olan savadlı adam görməmişəm. O adam riyaziyyatı bitirmişdi. Kürd dilindən də müdafiə etmişdi. Kürd dilindən əsərlər tərcümə edirdi. İstənilən bir mövzuda nəsə soruşsan qısa zamandan sonra sənə o mövzuda dərin məlumat verə bilərdi. Qısa zaman lazım idi ki, kitablara baxsın. Özü də Şamil müəllimdə göz yaddaşı çox güclü idi. Kitabı bizim kimi sətr-sətr oxumurdu, bir dəfə baxanda bir səhifəni oxuya bilirdi. Həm də millətinə, xalqına, Kəlbəcərə vurğun idi.

**- Sizi də uşaq olanda yaqin müəllimləriniz döyüblər, özünüz müəllim olanda uşaq döyürdünüzmü?**

- Məni də müəllimlərim döydüyü vaxtlar olub. Mən də müəllim olandan sonra dərs üstündə uşaqları döymüşəm. Kəlbəcərin məşhur insanlarının övladlarına dərs demişəm və onları döymüşəm də. Əvəz Şükürovun uşaqlarını, indiki millət vəkili Cavid Qurbanovu dəfələrlə cəzalandırmışam. Bir dəfə də məktəbdə növbətçi idim. İkinci mərtəbədə idim, gördüm ki, Mehdiyev Hacıbabanın qardaşı oğlu Zakir şuluqluq edir. Onu cubuqla vurmuşdum. Onun da dərisi yumşaq olduğundan çubuğun izi dərisində qalmışdı. Səhər müəllimlər otağına gedəndə gördüm ki, valideyni ilə gəlib məktəbə. Zakirin atası dedi ki, müharibə veteranıyam, polisə şikayət edərəm, uşağı niyə bu şəkildə döymüsüz? O zaman direktor Bağırov Həsən idi. Həsən müəllim, həmin valideyni bir təhər yola gətirdi. Razılaşdılar ki, Zakirin sinfi dəyişdiriləcək. Sabah gəldim ki, Zakir mənim sinfimdə yoxdur. Soruşdum, uşaqlar dedi başqa sinfə gedib. Gedib Zakirə dedim ki, iki seçimin var: ya qayıt öz sinfinə, ya da məktəbini dəyiş. Sonra gəldim ki, Zakir artıq qayıdıb mənim sinfimə. İnstitutu bitirəndən sonra gəldi ki, Əli müəllim, yaxşı ki, o zaman məni öz sinfinə gətirdin.

Kəlbəcər işğal olunandna sonra Bakıda, Yasamalda iməktəb direktoru işlədim və ciddi yanaşma nəticəsində iki ildə qəbul faizi 46-ya yüksəldi. “Sovetski”nin uşaqları əməllibaşlı oxuyurdular. Uşaq o müəllimdən narazı qalmır ki, müəllim uşaqlara bilik verir. Amma mən uşaqları nadinclik etdiyinə görə yox, oxumağına görə döymüşəm. Nadinclik etmək uşağın adətidir. Amma həm nadinclik etmək, həm də oxumamaq olurdusa, bu zaman vəziyyət pisləşirdi.

**- İndi bir uşağı güldən ağır söz deyəndə gizlincə videosunu çəkib qoyacaqlar “Youtube”a və aləm dəyəcək bir-birinə. Xaricdə dərsdə stolun üstündə oturub leksiya dinləyən şagirdlər də olur. Amma orada təhsilin səviyyəsi bizdən heç də aşağı deyil. Demək, təkcə intizam təhsilin keyfiyyətinə təsir etmir, razısınızmı bununla?**

- Bir misal deyim. Şəhər sovetində işləyəndə küçənin kənarı ilə ağaclar, gül-çiçək əkmişdik. Onun kənarlarına qorumaq üçün 1.5 metrlik dəmir barmaqlıq vurdurmuşdum. Bir gün kimsə gedib birinci katib İnqilab Nadirova deyib ki, Əli müəllim, o dəmir barmaqlıqları düzəltdirib, amma çox hündürdür. Nadirov məni yanına çağırıb dedi ki, bunu çox hündür eləmisən. Dedim ki, İnqilab müəllim, bizim adamlar hələ öyrənməyib, bir az vərdiş eləsinlər, onu ortadan kəsib o biri küçəyə çəkəcəyik. İndi onu hündür qoymuşam ki, iki dəfə xərcə düşməyək. Adamlar öyrənəndən sonra onu kəsib normal vəziyyətə saldıq. İndi hər dövrün öz xüsusiyyəti var. Gərək zamanın tələbinə də uyğunlaşasan. Amma gərək uşaqların üzərində nəzarətin olsun ki, oxusunlar.

**- Bəs, Kəlbəcər təhsilinə rəhbər təyin olunmağınız necə baş verdi?**

- Səhər sovetində işlədiyimiz dövrdə rayonda stadion tikdirdik. Aradan bir müddət keçəndən sonra Şamil müəllim həbsdən buraxıldı. Ondan sonra Kəlbəcərdə Muzey binası tikdirdik. Qərara aldıq ki, köhnə klubun yerində Muzey tikək. Layihəni Şamil müəllimlə ikimiz dizimizin üstündə çəkdik. Mən isə dedim ki, nə qədər pul lazımdır mən şəhər sovetindən ayıracam. Sonra layihəni bir qədər də nizama saldıq və təsdiqlətdik. Amma istər stadion, istər muzey, istər məktəb binasının tikintisi “raykom” və “ispolkom”dan asılı idi. İnqilab Nadirovla Qənbər Qurbanovun zamanında bu işləri rahat görürdük. Şəhər sovetində işlədiyim dövrdə dolanışıq da yaxşı idi. Həmçinin, şəhərdə yaxşı işlər görürdük. Bir gün məni İnqilab Nadirov çağırdı ki, Kəlbəcərin adı maariflə bağlı tədbirlərdə yaxşı hallanmır, səni təhsilə rəhbər təyin etmək istəyirik. Mən isə dedim ki, ailəmlə məsləhətləşim sonra. Amma məqsədim o idi ki, Şamil müəllimlə məsləhətləşim. Onun başının üstündən iş görmək istəmirdim. Şamil müəllimə dedim ki, gedin məsləhətləşin, alınsa, səni maarif şöbəsinin müdiri təyin etdirək. O, həbsdən çıxdığından vəzifəyə təyin edilməsi çətin idi. Şamil müəllim Bakıya gedib gəldi və dedi ki, alınmadı. Gələndən sonra mənə dedi ki, əgər istəyirsənsə, sən maarif şöbəsinə müdir get. 1984-cü il yanvarın 6-dan maarif şöbəsinə müdir kimi təsdiq olundum. Həmin dövrdən 1992-ci il avqustun 22-dək maarif şöbəsinin müdiri işlədim. Xalq Cəbhəsinin dövründə də bir müddət işlədim.

**- O dövrdə həm də Kəlbəcərin müdafiəsi üçün çalışırdınız.**

- Həmin dövrdə bütün qüvvəmizlə Kəlbəcərin müdafiəsi üçün çalışırdıq. Sahib Əkbərov icra başçısı olanda Xızıda da icra başçısı Maksim Musayev idi. Bir gün gəldim Maksim müəllimin yanına. Kəlbəcərdən danışanda dedim ki, ağdamlılar patronun birini bizə 2 manata satır. O isə bildirdi ki, bir maşın gətirsəm, bizə bir maşın patron verər. Həmin dövrdə hələ Yaşmada sovet ordusunun hissələri var idi. Mən də zəng edib Sahib müəllimdən iki maşın alıb qayıtdım Xızıya. Axşam zəng edəndə Maksim müəllim soruşdu ki, maşınların üstü çadırdırmı? Dedim çadılı deyil. Dedi ki, cadırsız maşını hərbi hissəyə salmaq olmaz. Onda mən hərbi hissənin öz maşını ilə silahları çıxardıracam, sız kənarda öz maşınınıza yükləyərsiniz. Silahları yükləyib bitirəndən sonra zəng etdim ki, Maksim müəllim silahları yüklədik, amma indi bunu necə aparaq Kəlbəcərə? Bir ünvan verib dedi ki, tapşırmışam gedin o dəyirmana, özləri həll edəcək. Gəldik həmin dəyirmana, maşınların hərəsinin üstünə 1-2 ton mal yemi tökdülər. Sonra da qaimə yazdılar ki, bu maşınlardakı yem Kəlbəcərə aparılır.

Beləliklə, Kəlbəcərə 60 min patron apardıq. Xalq Cəbhəsinin hakimiyyəti dövründə isə 1200 müəllim, 600-ə yaxın texniki işçinin bir aylıq əmək haqqını toplayıb silah almaq üçün təhvil verdik. İki kisə pul toplanmışdı. Onun təhvil verilməsinə 2 gün vaxt getdi. Sonradan gedib həmin pula bir neçə BTR və digər silahsursat aldılar. Həmin silahsursatı təhvil verdik Zaur Rzayevə. Onun rəhbərliyi ilə böyük bir batalyon yaratdılar. Onlar üçün yatmaq yeri düzəltdik. Həftədə bir dəfə aparırdıq İstisuya hamama. Amma sonradan onları apardılar Laçına. Halbuki, silah-sursatın hamısını biz öz pulumuzla almışdıq. Tez-tez gedib onlara baş çəkirdik. Bütün əsgərləri yara basmışdı.

Sonra Kəlbəcər də işğal olundu. İşğaldan sonra gedib bir müddət Yasamal rayonunda inspektor işlədim.

**- Kəlbəcərin tanınmış şəxslərindən kimlərə dərs demisiniz?**

- Mən Cavid Qurbanova, İsgəndər Həmidova və başqalarına dərs demişəm. Cavid yaxşı oxuyurdu, yaxşı da şeir deyirdi. Amma İsgəndərin elə dərin biliyi yox idi. Eldar Həsənovun isə çox dərin biliyi var idi.

**- Kəlbəcərin bu gün üzdə olan, tanınmış şəxslərinin əksəriyyətinə dərs demisiniz. Onların bəzilərini hətta oxumağa görə döymüsünüz də. Sonradan həmin etdiklərinizin qarşılığını gördünüzmü?**

- Bu gün həmin uşaqlardan vəzifədə işləyənlər də, iş adamları da, adi adamlar da var. Bu gün onların hansına nə desəm, “baş üstə” deyib, icra edəcəklər. Şagirdlərimin heç birindən “yox” sözü eşitməmişəm. Adamlarda özünə qarşı normal münasibət yaratmaq üçün,gərək səmimi, obyektiv olasan və insanların əməyinə düzgün qiymət verəsən. Əgər insanların əməyinə düzgün qiymət versən, insanlar bunu dəyərləndirəcək. Bir şeyi deyim ki, müəllim işlədiyim dövrdə bir adamdan bir qəpik rüşvət almamışam. Ola bilər ki, kimsə, öz həyətindən, təsərrüfatından nəsə bir hədiyyə versin, amma heç kimdən nəsə tələb etməmişəm.

**- Kəlbəcər məktəblərinin məzunları 1998-ci ilə qədər məcburi köçkün rayonları arasında birinci olub. Amma sonrakı illərdə bu nəticə pisə doğru dəyişdi. Bunun səbəbləri nə idi?**

- İşğaldan sonraki ilk illərdə Kəlbəcərdəki təhsilin əlamətləri var idi. Sonradan isə nəzarət sistemi zəiflədi. Tək Kəlbəcərdə yox, bütün ölkə ərazisində rəhbərlik müəllimin əmək haqqına göz dikməyə başladı. Mən neçə il maarif şöbəsində inspektor, maarif müdiri, məktəb direktoru işlədim, bir dəfə də olsun müəllimin əmək haqqına göz dikmədim. Çünki bu onun zəhmət haqqıdır. O müəllimlər bunu öz zəhmətləri ilə qazanır. Hansisa müəllim Kəlbəcərdə öz təsərrüfatından verdiyi hədiyyəni demirəm, ola bilər ki, kimsə kiçik hədiyyə verərdi, bu normaldır. İndi məktəb direktoru olanların bir çoxu mənim şagirdim olub. Onlara da deyirəm ki, mən nə cür direktor olmuşamsa, siz də o şəkildə rəhbər olun. Bir də mən heç zaman imkan verməzdim ki, müəllimə haqsız təsirlər, yersiz zərbələr olsun. Müəllimlərə görə, prokuror Seyidovla dəfələrlə mübahisə etmişdim. Müəllim də görürdü ki, ona qayğı göstərən bir yoldaş, bir rəhbər var. Amma indi o münasibət də dəyişib. Nəinki polis, prokror, inspektor, adi jurnalist də müəllimin üstünə elə gedir ki, elə bil onlar qatı cinayətkardır.

***Xalid Vahidoğlu***

# Pentaqon şefi İraq Kürdüstanında

İraq Kürd muxtariyyətinin başçısı Məsud Bərzani Ərbildə ABŞ müdafiə naziri Eşton Karterlə görüşüb.



Avropa.info xəbər verir ki, bu haqda Bərzani administrasiyası məlumat yayıb. Tərəflər İraqın ikinci ən böyük şəhəri Mosulun İŞİD-dən azad olunması, o cümlədən peşmərgənin terrorlar mübarizəsi məsələlərini müzakirə ediblər.

Karter ABŞ-ın peşmərgəyə loqistik və maliyyə yardımını davam etdirəcəyinə söz verib.

Qeyd edək ki, Karter İraqa səfəri çərçivəsində daha əvvək baş nazı Heydər əl İbadi ilə görüşmüşdü. ***avropa.info***

# Türkiyədə daha iki kürd deputat saxlanıldı



Türkiyədə Xalqların Demokratik Partiyasından olan kürd əsilli deputatlar Maxlar Demirelya və Besne Konca saxlanılıblar. Saxlanılan kürd deputatlar terror strukturlarına yardım göstərməkdə günahlandırılır.

Məhkəmə qərarında qeyd edilib ki, parlamentarlar çağırış göndərilsə də, məhkəməyə gəlməyiblər. Bu səbəbdən onların saxlanılması qərara alınıb. ***Modern.az***

# ABŞ kürdlərə 7 helikopter silah göndərdi



Bir neçə gün öncə ABŞ Konqresinin kürdlərə yardım edilməsi barədə qəbul etdiyi qərarın ABŞ prezidentinin razılığı olmadan icrasına başlanılıb. Son 1 sutka ərzində Suriyadakı kürd silahlı birləşmələrə 7 helikopter hərbi təchizat göndərilib. Suriya Demokratik Qüvvələrindən "Basnyus"a verilən məlumata görə, ABŞ-ın bölgəyə göndərdiyi silahlar Rakka əməliyyatlarına hazırlıq xarakteri daşıyır. YPG-yə verilən silahlar arasında "Stinger" hava hücumundan müdafiə sistemi və zirehli avtomobillərə qarşı istifadə olunan raketlər də var.

Qeyd edək ki, ABŞ Senatı bir müddət öncə kürdlərə "Stinger" sistemlərinin göndərilməsini nəzərdə tutan qanun layihəsini qəbul edib. Ancaq yardımın qüvvəyə minməsi üçün Prezident Barak Obamanın təsdiqi lazım idi. ***İnterpress.az***

# ABŞ-dan Ankaraya təklif — İŞİD-ə qarşı PKK ilə birləşin

ABŞ Suriyada İŞİD terrorçularına qarşı mübarizə aparan Türkiyə hərbçiləri ilə silahlı kürd birləşmələri arasında olan gərginliyi azaltmağa cəhd edir. Bu barədə Beynəlxalq koalisiyanın rəsmi nümayəndəsi Con Dorrian çıxış edib. Con Dorrian bildirib ki, iki tərəflə görüşlərdə Ankara və PKK hədəflərinin İŞİD olduğunu açıq bəyan edirlər. "Bizi narahat edən "Fərat qalxanı" əməliyyatı zamanı Türkiyə ordusunun PKK-ya da zərbə vurmasıdır. Ankara PKK-nı terrorçu təşkilat hesab edir". Con Dorrian bəyan edib ki, Rakka şəhərində kürd birləşmələrindən ibarət 45 minlik ordu İŞİD-ə qarşı vuruşur. O, bildirib ki, koalisiya qüvvələri onlara havadan və yerdən dəstək verir. ***xeberci.info***

# Hələb Suriya ordusu tərəfindən azad edildi

Suriya ordusu dünən gecə strateji əhəmiyyət daşıyan eləcə də Suriyanın şimal qərbində terrorçuların ən əsas bazası sayılan Hələb şəhərinin tamamiylə azad edilməsini rəsmən bildirib

İRİB-nin Spotnikə istinadən verdiyi məlumata görə, Suriya ordusu bildirib ki, terrorçu qrupların Hələbin şərqindəki son qərargahlarından da qovulması ilə, 5 ildən sonra nəhayət Hələb şəhəri terrorçuların işğalından tamamiylə azad edilib.

Bu məlumata görə, dünən axmama qədər Hələbin şərqində sadəcə 3 məhəllə terrorçuların işğalı altında idi, onlar da qovularaq şəhər tamamiylə Suriya ordusunun nəzarətinə keçib.

Hələbin azad edilməsinin ardınca minlərlə şəhər sakini qələbəni qeyd etmək üçün küçələrə axışıb və bu böyük qələbəni biri-birlərinə təbrik deyib. Əldə olunan məlumatlara görə, terrorçu qruplar Hələbdəki rusvayçı məğlubiyyətlərindən sonra biri-birlərini xəyanətdə ittiham ediblər.

İRİB-nin Dəməşqdən verdiyi məlumata görə, bu ixtilaflar ona görə artıb ki, bəzi terrorçu qruplar Hələbin azad edilməsi əməliyyatı başlanmazdan öncə bu şəhəri tərk ediblər və Türkiyənin "Fərat qalxanı" qüvvələrinə qatılıblar.

Son həftələr ərzində terrorçuların Hələbdə ağır məğlubiyyətlərə məruz qaldıqlarından sonra onların himayədarları tez-tez iclaslar təşkil etməklə regionda




əməliyyatların dayandırılmasına cəhd göstərirdilər. Hələb şəhərinin azad edilməsi barədə Suriya ordusu tərəfindən yayılan məlumatlarla eyni zamanda bəzi ərəb telekanalları Suriyada baş verən hadisələri əksinə göstərməyə çalışdılar. Suriyanın şimal qərbində yerləşən strateji əhəmiyyətli Hələb şəhərinin azad edilməsi xəbərinin yayılmasından az sonra Suriyaya qarşı olan Əl-Hədəs və Əl-Ərəbiyyə kimi ərəb telekanalları, terrorçuların himayədarlarının Suriya ordusuna qarşı psixoloji müharibəsi hesab olunan bir təşəbbüsə əl ataraq deyiblər ki, Suriya hökuməti Hələbin şərqini azad edərək bu ərazilərdə qırğınlara başlayıb və indiyədək onlarla adam öldürülüb.

Suriyaya qarşı olan ərəb telekanalları həmçinin dünən Hələbin azad edilməsi xəbəri barədə susublar və sonrada terrorçu qruplarla onların himayədarları arasında əlaqə körpüsü rolunu oynayan bu şəhərin Suriya ordusu tərəfindən azad edilməsinin heç də önəmli hadisə olmadığını inandırmağa cəhd göstəriblər.

Hələbin azad edilməsi ilə sadəcə Suriyanın şərqində Dyrəzzur vilayətinin bəzi kiçik hissələri və ölkənin şimalında Riqqə vilayəti terrorçu qrupların işğalındadır. Hələbin azad edilməsindən sonra Suriya qüvvələrinin bu ərazilərin də azad edilməsinə təşəbbüs göstərəcəyi gözlənilir. ***azeri.sahartv.ir***

# Türkiyənin kürdsakinli bölgələrdə keçirdiyi əməliyyatlar minlərlə sivilin didərgin düşməsi ilə nəticələnib

Türkiyənin kürdsakinli bölgələrdə keçirdiyi əməliyyatlar minlərlə sivilin didərgin düşməsi ilə nəticələnib

Beynəlxalq Amnistiya Təşkilatı öz hesabatında təhlükəsizlik bəhanəsi ilə adi vətəndaşların həyatını məhv etdiyinə görə Türkiyə rəsmilərini sərt şəkildə tənqid edib.

